

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 32 (7287) / Şənbə, 16 fevral 2019-cu il


## Prezident İlham Əliyev:

# Xalq-iqtidar birliyi hər bir ölkənin inkişafı üçün əsas şərtdir



*Xalq-iqtidar birliyi hər bir ölkənin inkişafı üçün əsas şərtdir. Sabitliyin qorunmasının təminatçısı Azərbaycan xalqıdır. Son prezident seçkilərində mənə göstərilən böyük etimad dediyim sözlərin məntiqi sübutudur. Sabitlik olmayan yerdə ölkələr dağılır, insanlar əziyyət çəkir, fəlakətlər baş verir. Biz bunu yaxın tarixdə görürük. Ona görə Azərbaycanda sabitliyin möhkəmləndirilməsi hər bir vətəndaşın işi olmalıdır, ilk növbədə, dövlətin və hər bir vətəndaşın. Mən çox şadam ki, bu gün Azərbaycan dünyada sabitlik adası kimi tanınır. Bu, bizim böyük üstünlüyümüzdür. Bu, bizə imkan verir ki, Azərbaycan islahatlar yolu ilə uğurla getsin. Bu, bizə imkan verir ki, öz iqtisadi imkanlarımızdan istifadə edib, xalqımızın rifah halının yaxşılaşmasına yönəlmiş növbəti addımlar atılsın. Bu, bizə imkan verir ki, Azərbaycan xalqı bundan sonra da sülh və əmin-amanlıq şəraitində yaşasın.*

## MEDİAYA AÇIQ PREZİDENT:

# İlham Əliyev fikirlərini KİV-lə bölüşür



⇨ Bax: səh. 2

## Birinci vitse-prezident Mehriban Əliyeva Gəncəyə səfəri zamanı ona göstərilən qonaqpərvərliyə görə gəncəlilərə təşəkkürünü bildirib



⇨ Bax: səh. 3

⇧ Bax: səh. 3



## ƏLİ HƏSƏNOV:

### Məişət zəminində yaşanan hər hansı insident Azərbaycan və çeçen xalqları arasında tarixən mövcud olmuş dostluq və qardaşlıq əlaqələrinə xələl gətirə bilməz

⇧ Bax: səh. 4

## Buzovnadakı psixonevroloji sosial xidmət müəssisəsinin yenidənqurmadan sonra açılışı olub



### Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva açılışda iştirak edib



⇧ Bax: səh. 5

## AKADEMİK ARİF PAŞAYEV

### intellektual və mənəvi səma zirvəsində



⇧ Bax: səh. 6



## YUBİLEY - 50

Siyavuş Novruzov:

### Sadəcə ömür sürməmişəm, mən yaşamışam

⇧ Bax: səh. 7



## TƏLƏBƏ TƏQAÜDLƏRİNİN ARTIMI:

### Təhsilin keyfiyyətinin yüksəldilməsinə qoyulan yeni sərmayə

⇧ Bax: səh. 11



## Professor Aygün Əttar:

### Azərbaycanın uğurlarının əsasını xalq-hakimiyyət birliyi təşkil edir


8 | Jurnalistika cinayət əməllərinin ört-basdır edilməsi meydanı deyil

11 | "Mühəndislər üçün biznes təhsili"

13 | Şimali Azərbaycanın işğalı və neftli torpaqların çar xəzinəsinin mülkiyyətinə çevrilməsi (1801-1871-ci illər)



## PREZİDENT İLHAM ƏLİYEV LİTVALI HƏMKARINI TƏBRİK EDİB

Prezident İlham Əliyev Litva Prezidenti Dalya Qribauskayteyə təbrik məktubu göndərib.

Məktubda deyilir: *"Hörmətli xanım Prezident, Ölkənizin milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.*

*İnanıram ki, Azərbaycan ilə Litva arasındakı mövcud dostluq və tərəfdaşlıq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.*

*Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirməkdən məmnunluq duyur, dost Litva xalqına daim əmin-amanlıq və rifah arzulayıram".*

## TOVUZDA YOL TİKİNTİSİNƏ 3,3 MİLYON MANAT AYRILIB

Prezident İlham Əliyev Tovuz rayonunun Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq-Sarıtala avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, əlli min nəfər əhalinin yaşadığı 16 yaşayış məntəqəsini birləşdirən Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq-Sarıtala avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,3 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyi Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılır. Nazirlər Kabinetinə tapşırılır ki, Sərəncamdan irəli gələn məsələləri həll etsin.

## SABİRABAD VƏ SALYANDA QIŞ OTLAQLARINDA MELİORASİYA İŞLƏRİ İLƏ BAĞLI 30 MİLYON MANAT AYRILIB

Prezident İlham Əliyev Sabirabad və Salyan rayonlarında yerləşən qış otlaqlarında meliorasiya işləri ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Son illərdə respublikada pambıqçılığın, taxılçılığın, digər kənd təsərrüfatı bitkiləri və heyvandarlıq məhsulları istehsalının genişləndirilməsi məqsədilə müasir tələblərə cavab verən su anbarlarının, nasos stansiyalarının, suvarma kanallarının və digər su təsərrüfatı obyektlərinin tikilməsi on minlərlə hektar torpaq sahəsinin əkin dövriyyəsinə cəlb edilməsinə, aqrar sektorun inkişafına, ən mütərəqqi standartlar səviyyəsində aqroparkların və iri kənd təsərrüfatı müəssisələrinin fəaliyyətə başlamasına zəmin yaratmışdır. Aqrar sahədə aparılan uğurlu islahatlar nəticəsində bir sıra strateji məhsullara tələbatın yerli istehsal hesabına tam ödənilməsinə, ölkənin ərzaq təminatında xarici bazardan asılılığın azaldılmasına, ixracyönümlü məhsulların istehsal həcminin artırılmasına və bununla da regionların davamlı inkişafına nail olunmuşdur.

Görülən işlərin davamı olaraq, Sabirabad və Salyan rayonlarındakı qış otlaqlarında meliorativ tədbirlər layihəsi çərçivəsində son iki il ərzində az məhsuldar qış otlaqlarında aparılmış meliorasiya işləri nəticəsində 15950 hektar, o cümlədən Sabirabad rayonunda 14319 hektar və Biləsuvar rayonunda 1631 hektar əraziyə suvarma suyu çatdırılmışdır.

Sərəncamda qeyd edilir ki, Sabirabad və Salyan rayonlarında yerləşən qış otlaqlarında meliorativ tədbirlərin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.27-ci yarımbəndində göstərilmiş məbləğin 30 milyon manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

Maliyyə Nazirliyinə Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

## MEDİAYA AÇIQ PREZİDENT:

# İlham Əliyev fikirlərini KİV-lə bölüşür

Dövlət başçısı İlham Əliyevin çox aktiv siyasi liderlik həyatı yaşadığını hər kəs qəbul edir. Azərbaycan Prezidenti yorulmadan müstəqil dövlətçiliyin inkişafı naminə səmərəli proqramlar reallaşdırır. Siyasət və diplomatiya sahəsində ölkə başçısının əldə etdiyi nailiyyətlər beynəlxalq aləmdə açıq etiraf edilir. Bununla yanaşı, İlham Əliyev jurnalistlərlə də ünsiyyətə tam açıq liderdir. Dünyanın müxtəlif ölkələrinin aparıcı nəşrləri ondan müsahibələr götürür, fikirlərinə böyük maraq göstərirlər. Azərbaycan mediası da dövlət başçısı ilə ünsiyyətə çox can atır. Son olaraq Prezident Real televiziyasına geniş müsahibə verib. Dövlət başçısı müsahibədə KİV-lə ünsiyyətində hər şeydən öncə Azərbaycan dövlətçiliyinin maraqlarına üstünlük verdiyini ifadə edib. Bu, çox əhəmiyyətli yanaşmadır və Prezidentin fəaliyyətinin mahiyyətini dərk etməyə yardımçı olur. Həmin kontekstdə biz, müsahibənin bir sıra məqamları üzərində geniş dayanmağa böyük ehtiyac duyduq.



### Dövlətçilik və müstəqillik naminə: jurnalistlərlə münasibətin başlıca meyarı

Azərbaycan müstəqil dövlət kimi Cənubi Qafqazın ən cazibədar ölkəsidir. Dünyanın inkişaf etmiş ölkələri bu məkanda əməkdaşlıq üçün ilk olaraq Azərbaycanı düşünürlər. Lakin keçən əsrin 90-cı illərinin əvvəlində mənzərə tamamilə fərqli idi. Hətta dünya xəritəsindən Azərbaycan adlı dövlətin silinəcəyini gözləyənlər də var idi. İndi, müstəqilliyin 27-ci ilində isə regionun lideri olan qüdrətli Azərbaycan mövcuddur. Bu, Ulu öndər Heydər Əliyevin müstəqil dövlət quruculuğu kursunun həyata keçirilməsinin birbaşa nəticəsidir. Və hazırda Prezident İlham Əliyev həmin kursu müasir tələblər səviyyəsində böyük uğurla həyata keçirir. Dövlət başçısının Real televiziyasının rəhbərinə müsahibəsinin məzmunu bu qənaəti bir daha təsdiq edir.

İlham Əliyev növbəti dəfə səmimi, millətini və müstəqil Azərbaycanı çox sevən, bu yolda yorulmadan çalışan və hər bir vətəndaşın Prezidenti olmağı bacaran lider kimi özünü göstərdi. Müsahibə boyu verilən suallara açıq, konkret və məzmunlu cavablar verən ölkə rəhbərinin qətiyyətli və strateji məsələləri dərindən bilən siyasi xadim olduğu aşkar göründü. Hər şeydən öncə, Prezident Azərbaycan mediasına olan münasibətini açıq ifadə edib. İlham Əliyev vurğulayıb: "...mən Azərbaycan mediasına həmişə böyük dəstək göstərmişəm. Mənim media nümayəndələri ilə çoxsaylı görüşlərim bunun əyani sübutudur və həmişə çalışmışam ki, öz işimlə medianın inkişafına dəstək verim. Şadam ki, Azərbaycan mediası bu gün ölkəmizin həyatında önəmli rol oynayır. Deyə bilərəm ki, mən də öz işimdə mediadan gələn xəbərlərə istinad edirəm, bəzi hallarda mediadan bir çox məsələləri öyrənirəm, dərhal reaksiya verirəm. Bu barədə mən bir neçə dəfə öz fikirlərimi bildirmişəm və hesab edirəm ki, gələcəkdə Azərbaycan mediası ölkəmizin həyatında bundan da böyük rol oynayacaqdır". Burada dövlət başçısı üç maraqlı məqamı ifadə edib.

Birincisi, İlham Əliyev dövlət başçısı kimi həmişə medianın inkişafına xüsusi diqqət yetirib. Prezidentin bu istiqamətdə atdığı addımlardan bu, aydın görünür. Nəşrlərə qayğı, jurnalistlərə hərtərəfli dəstək, söz azadlığının təmin olunması və digər məsələlər üzrə Azərbaycan mediasına ölkə rəhbərinin dəstəyi çox böyükdür. İkincisi, Prezident lakonik surətdə vurğulayır ki, Azərbaycan mediası ölkənin sosial, siyasi, mədəni və informasiya həyatında əhəmiyyətli rol oynayır. Media bu istiqamətdə kifayət qədər fəaldır. Bu o deməkdir ki, İlham Əliyev həyata keçirdiyi islahatlar siyasətində cəmiyyətin inkişafına, demokratik qaydada fikirlərin sərbəst ifadə edilməsinə və bu prosesdə jurnalistlərin aktiv olmasına daim önəm verib. Üçüncüsü, Prezident özü mediadan geniş istifadə edir. Dövlət başçısı deyir ki, fəaliyyətində mediadan yararlanır, verilən informasiyalara diqqət yetirir. Dövlət başçısının belə nümunəvi və demokratik davranışı bütün məmurlar üçün model olmalıdır. Müasir tarixi mərhələdə mediasız tərəqqi mümkün deyil. İnformasiya bütövlükdə inkişafın əsas faktoru kimi getdikcə daha çox əhəmiyyət kəsb etməkdədir. Prezident bu həqiqəti cəmiyyətə bir daha çatdırdı.

Bunun fonunda ölkə rəhbəri Azərbaycan jurnalistləri ilə ünsiyyətinin bir sıra özəl məqamlarını da ifadə edib. Prezident vurğulayıb ki, "...bu gün Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq xüsusi əhəmiyyət daşıyan bir məsələdir". Konkret ifadə etsək, dövlət başçısı KİV ilə ünsiyyətində başlıca meyar kimi yenə dövlətçiliyi götürür. İlham Əliyev qısamüddətli maraqlar üzrə deyil, tarixi dövlətçilik maraqlarını nəzərə alaraq fəaliyyət göstərir. İndiki tarixi mərhələ isə tələb edir ki, Azərbaycan müstəqil dövlət kimi dünyada əsl simasında tanınsın. Həmin mənzərəni Prezident dolğun təsvir edib: "Azərbaycana qarşı bir sıra hallarda çox əsassız ittihamlar irəli sürülür, qərəzli, saxta məlumatlar dərc edilir. Bunun məqsədi ölkəmizin imicinə zərbə vurmaq, ölkəmizi inkişaf, müstəqillik yolundan döndərmək və Azərbaycanı geridə qalmış ölkə kimi təqdim etməkdir. Ona görə xarici mediada bizim mövcudluğumuz, sözlərimizin çatdırılması xüsusi əhəmiyyət daşıyır. Yəni, bizə qarşı aparılan bütün bu təbliğatın qarşısında öz həqiqətlərimizi ortaya qoyuruq, Azərbaycanı müasir, güclü dövlət kimi tanıtdırırıq və ölkə haqqında həqiqətləri çatdırırıq". Bu səbəbdən İlham Əliyev ingilis və rus dillərində gözəl müsahibələr verib, həm Azərbaycanı anladır, həm də yüksək peşəkar səviyyədə siyasi lider olduğunu nümayiş etdirir. İnformasiya mübarizəsinin dünya siyasətində ciddi yer tutduğu bir dönəmdə, təbii ki, bu, olduqca səmərəli üsuldur.

### Vəzifə və məsuliyyət: dövlət başçısının fəaliyyətinin işıqlandırılması

Məsələnin digər tərəfini də dövlət başçısı konkret ifadə edib. İlham Əliyev vurğulayıb: "...mən ölkə daxilində gedən işlərlə bağlı öz fikirlərimi müntəzəm olaraq müxtəlif formatda bildirirəm. Mənim çıxışlarımın bir çoxu hesabat xarakterlidir. Nazirlər Kabinetinin müntəzəm olaraq keçirilən toplantılarında həm görülmüş işlərə qiymət verilir və ən önəmlisi görüləcək işlər haqqında danışılır. Regional inkişaf proqramlarının icrası ilə bağlı tədbirdə il ərzində görüləcək işlər haqqında çox aydın ifadələr ortaya qoyulur. Beləliklə, Azərbaycan vətəndaşları həm məndən eşidirlər ki, hansı işlər görülüb, biz harada uğurlara nail olmuşuq, harada hələ ki, həll olunmamış problemlər, nöqsanlar var və həm də görüləcək işlərlə bağlı fikirlər ortaya qoyulur. Müxtəlif mövzularla bağlı müntəzəm olaraq öz fikirlərimi çatdırıram".

Burada ölkə rəhbəri əhəmiyyətli bir məqamı ictimaiyyətə çatdırır. Məsələ ondan ibarətdir ki, Prezidentin rəsmi tədbirlərdə, hesabat xarakterli iclaslarda ifadə etdiyi fikirləri media insanlara çatdırmalıdır. İnformasiya formasında, təhlillər və proqnozlarla, ölkə rəhbərinin apardığı siyasətin dərin qatlarını açmaqla bu işi görməlidir. Azərbaycan mediasının hər bir qurumu bu işi görə bilirmi? Təəssüf ki, görə bilmir, bəziləri isə görmək istəmir. Bu da bütövlükdə dövlətçiliyə zərər verən haldır. Yəni jurnalistlər dövlət başçısı ilə ünsiyyəti onun söylədiyi fikirləri doğru-düzgün, səmərəli üsulla, təhili və proqnostik aspektdə kütləviləşdirməklə də qura bilərlər. Bizcə, cəmiyyətin inkişafı baxımından məsələnin bu cəhəti də son dərəcə önəmlidir.

Əslində, Prezident müsahibəsinin sonrakı hissəsini yenə də sırf dövlətçilik mövqeyindən həyata keçirilən siyasi kursun konkret nəticələrinə həsr edib. İlham Əliyev hazırda ölkədə aparılan islahatların əsl mahiyyətini bir daha açıqlayıb. Əhalinin müxtəlif təbəqələrini əhatə edən sosial təminat siyasətinin dəqiq hədəflərinin reallaşma dinamikasını lakonik ifadə edib, idarəetmənin təkmilləşdirilməsi çərçivəsində yeni üsulların tətbiqini əsaslandırıb (məsələn, "ASAN xidmət" Azərbaycan brendi kimi), ordu quruculuğu və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində atılan addımların məzmunu, Azərbaycanda beynəlxalq tədbirlərin, o cümlədən idman yarışlarının təşkilinin siyasi və geosiyasi əhəmiyyəti, gənclər siyasəti və ölkədə sabitliyin təmin edilməsinin dövlətçiliyin qorunması baxımından əhəmiyyəti kimi aktual məsələləri geniş izah edib.

Bunlar dövlət başçısının həyata keçirdiyi proqramların tam siyahısı deyil. Ancaq sadalananların obyektiv işıqlandırılmasının bütövlükdə ölkə rəhbərliyinin həyata keçirdiyi siyasəti dünyaya anlatmaq üçün faydalı olduğuna şübhə yoxdur. Deməli, əslində, Prezident-media mənsubları münasibətlərindən danışarkən jurnalist məsuliyyətini ön sıraya qoymalıyıq. Hər bir jurnalist düşünməlidir: "mən ölkəmə necə xidmət edirəm, informasiyanı doğru və obyektiv çatdırırammı?". Təbii, KİV-də informasiyanı tərəfsiz yaymaq önəmli bir göstəricidir. Lakin bunun üçün jurnalist qərəzsiz olmalı və hansı ölkənin vətəndaşı olduğunu unutmamalıdır. Ümumiyyətlə, bitərəf söz və ya fikir yoxdur, çünki hər bir kəlmə hansısa konkret dildə və konkret şəxs tərəfindən deyilir. Bu, artıq mövqedir.

Beləliklə, Prezident bir müsahibəsində Azərbaycanın siyasi, sosial, iqtisadi, beynəlxalq və mədəni həyatının demək olar ki, bütün aspektlərini əks etdirən fikirlər söylədi. Bir daha bütün dünyaya aydın oldu ki, Azərbaycan rəhbəri dərin düşünülmüş daxili və xarici siyasət yeridir. Ən inkişaf etmiş ölkələrdə belə özünü göstərən bir sıra çətinliklərin fonunda bu kurs çox səmərəli və milli maraqlara xidmət edən mükəmməl sistemin əsasını təşkil edir. Məsələnin bu tərəfi xüsusi analiz olunmalıdır və biz ona ayrıca yazı həsr etməyi düşünürük.

**Newtimes.az**

## ƏLİ HƏSƏNOV: Məişət zəminində yaşanan hər hansı insident Azərbaycan və çeçen xalqları arasında tarixən mövcud olmuş dostluq və qardaşlıq əlaqələrinə xələl gətirə bilməz



Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov fevralın 15-də Moskvadakı "Neolit" kafesində azərbaycanlılar və çeçenlər arasında baş vermiş insidentlə bağlı AZƏRTAC-a açıqlama verib.

Əli Həsənov bildirib ki, Azərbaycan hökuməti insidenti adi məişət zəminində baş vermiş kriminal hadisə kimi dəyərləndirir və hesab edir ki, belə hallar Azərbaycan və çeçen xalqları arasında tarixən mövcud olan dostluq və qardaşlıq əlaqələrinə xələl gətirə bilməz. Prezidentin köməkçisi deyib: "Azərbaycan və çeçen xalqları arasında əlaqələr tarixin sınağından çıxmışdır və nümunəvi xarakter daşıyır. Prezident İlham Əliyevlə Çeçenistan Prezidenti Ramzan Kadırov arasında mövcud olan şəxsi dostluq münasibətləri, ötən ilin sonlarında keçirdikləri görüşdə səslənən fikirlər buna əyani sübutdur. Ümumiyyətlə, azərbaycanlılar bütün Qafqaz xalqları ilə əsrlər ərzində formalaşmış ortaq tarixini, dəyərlərini yüksək qiymətləndirir və həmişə qorumağa çalışır".

Azərbaycan ilə Rusiya arasında gündən-günə inkişaf edən əməkdaşlıq əlaqələrinin həm də ölkəmizin Şimali Qafqaz respublikaları, o cümlədən Çeçenistanla əməkdaşlığının möhkəmlənməsində önəmli rol oynadığını vurğulayan Əli Həsənov deyib: "Rusiya çoxmillətli dövlətdir, burada yaşayan xalqlar öz dillərini, mədəniyyətlərini qoruyub inkişaf etdirirlər. Rusiyada yaşayan azərbaycanlılar da digər xalqlar kimi həmişə öz milli mədəni hüquqlarından tam istifadə edə bilirlər. Biz soydaşlarımızı, qardaş çeçen və Rusiyada yaşayan digər xalqların nümayəndələrini bu ölkədəki multikultural mühitdən, yaradılmış şəraitdən xoş məramlar, xalqlararası dostluğun inkişafına töhfə verəcək məqsədlər üçün istifadə etməyə, belə xoşagəlməz insidentlərə yol verməməyə dəvət edirik. Əminliklə bildiririk ki, Moskvada yaşanmış insidentdən sui-istifadə edərək xalqlarımız arasında düşmənçilik toxumu səpmək istəyən qüvvələr böyük yanlışlığa yol verirlər və öz çirkin niyyətlərinə çatmayacaqlar".

## Birinci vitse-prezident Mehriban Əliyeva Gəncəyə səfəri zamanı ona göstərilən qonaqpərvərliyə görə gəncəlilərə təşəkkürünü bildirib




Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fevralın 14-də Gəncəyə səfəri zamanı "İmamzadə" dini kompleksində, Nizami Aydın adına 18 nömrəli tam orta məktəbində, uşaq evində, Mir Cəlal Paşayevin ev-muzeyində, 32 nömrəli körpələr evi-uşaq bağçasında və Gəncənin görməli yerlərindən biri olan "Xan bağı" mədəniyyət və istirahət parkında sakinlərlə görüşü zamanı ona göstərilən qonaqpərvərlik və səmimiyyətə görə gəncəlilərə təşəkkürünü bildirib.

Trend-in məlumatına görə, Azərbaycanın Birinci vitse-prezident Mehriban Əliyevanın səfər barədə fikirləri rəsmi "Instagram" səhifəsində açıqlanıb.

"Gözəl qədim Gəncə şəhərindən unudulmaz təəssüratlarla ayrıldım! Azərbaycan milli koloritini bu qədər aydın ifadə edən şəhər! Təkrarsız abhavası olan şəhər! Gəncənin qonaqpərvər, mehriban, zəhmətkeş və məğrur sakinləri! Səmimiyyət və istiqanlılığınıza, xoş arzularınıza, təbəssümünüzə görə sizə minnətdarlığımı bildirirəm! Allah hər zaman sizi qorusun!"

## Milli Kitabxanada növbəti kitab sərgisi akademik Arif Paşayevin 85 illiyinə həsr edilib

Fevralın 15-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında görkəmli alim, pedaqoq, elm və təhsil təşkilatçısı, ictimai xadim, Dövlət mükafatı laureatı, fizika-riyaziyyat elmləri doktoru, akademik Arif Paşayevin 85 illiyi münasibətilə "Akademik Arif Paşayev" adlı kitab sərgisi açılıb. Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə reallaşan sərginin açılışından öncə kitabxananın direktoru Kərim Tahirov çıxış edərək görkəmli akademikin elmi fəaliyyəti haqqında məlumat verib.




Kitabxananın direktoru Azərbaycanda fizika, texnika və aerokosmika elminin inkişafında müstəsna rol oynamış, respublikamızda elmin, təhsilin təşkilində xüsusi xidmətlər göstərmiş görkəmli alim, bacarıqlı elm və təhsil təşkilatçısı, fəal ictimai xadim akademik Arif Paşayevin 30-dan artıq kitab və monoqrafiyanın, 400-dən çox elmi əsərin müəllifi olduğunu və fizikanın müxtəlif sahələrinə həsr olunmuş 300-ə yaxın elmi əsərinin xarici ölkə mətbuatında nəşr olunduğunu, eyni zamanda, 60-dan çox ixtira üçün müəlliflik şəhadətnaməsi və sənaye nümunələri aldığını, alimin əldə etdiyi elmi nəticələrin ixtira səviyyəsində işlənib beynəlxalq sərgi və müsabiqələrdə qızıl, gümüş medallar və diplomlarla təltif olunduğunu, bir sıra sənaye müəssisələrində tətbiq edildiyini diqqətə çatdırıb.

Qeyd edib ki, alimin elmi əsərləri mühüm praktiki əhəmiyyət kəsb etməklə yanaşı, gənc alimlər üçün də çox dəyərli mənbələrdir, akademikin əsərlərində əks olunan fundamental elmi-texniki nəticələr, faydalı elmi, elmi-təşkilati və pedaqoji fəaliyyəti, Azərbaycanda ali aviasiya təhsilinin müasir səviyyədə təşkili tanınmış ziyalının müstəsna xidmətlərindəndir.

K.Tahirov deyib: "Azərbaycan yazıçısı, görkəmli ədəbiyyatşünas alim, professor Mir Cəlal Paşayevin ailəsində dünyaya gəlmiş, özü də Azərbaycan elminə, təhsilinə layiqincə xidmət etmiş ziyalı milli dəyərlərimizin dünya miqyasında təbliğində əvəzsiz rolu olan övladlar yetirmişdir. Səmərəli elmi və elmi-təşkilati işlə yanaşı, olduqca faydalı pedaqoji fəaliyyətlə də məşğul olan akademik Arif Paşayevin rektoru olduğu Milli Aviasiya Akademiyası respublikamızın qabaqcıl ali təhsil müəssisələrindən birinə çevrilib. Azərbaycanda ilk dəfə olaraq müasir dünya standartlarına uyğun, təhsil, elm və istehsalatın vəhdətini nəzərdə tutan ali təhsil ocağı yaratmağa nail olmuş akademik Arif Paşayev ölkəmizdə aviasiya təhsilinin müasir səviyyədə inkişafına gərgin əmək sərf edən, gənc nəslin təlim və tərbiyəsini həmişə diqqətdə saxlayan qayğıkeş rəhbərdir".

Kitabxananın direktor müavinləri Ədibə İsmayılova və Məlek Xanım Hacıyeva tədqiqatlarının əsas hissəsi yeni cihazların yaradılmasına, mövcud cihazların təkmilləşdirilməsinə, müxtəlif fiziki kəmiyyətlərin ölçülməsinin yeni metodlarının işlənilməsinə yönəldilmiş, yüksək elmi-praktiki potensiala və təşkilatçılıq qabiliyyətinə malik olan görkəmli alimin həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas məqamlarından, elmi nailiyyətlərindən danışaraq, akademikin respublikamızın həyatında taleyüklü məsələlərin həllində səylərini əsirgəməyərək öz xalqına əvəzsiz xidmətlər göstərdiyini söyləyiblər.

Sərgidə akademik Arif Paşayevin Azərbaycan və digər dillərdə çap edilmiş monoqrafiyaları, dərslikləri, dərs vəsaitləri, elmi məqalələri, beynəlxalq simpozium və konfranslardakı çıxışlarının tezisləri, müəlliflik şəhadətnamələri və ixtira patentləri haqqında yazılar, həmçinin alimin elmi, pedaqoji, ictimai fəaliyyəti haqqında 300-dən artıq ədəbiyyat nümayiş edilir.

Sərgi on gün davam edəcək.

## ƏDLİYYƏ NAZİRİ XAÇMAZDA VƏTƏNDAŞLARI QƏBUL EDİB




Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq, Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, fevralın 15-də ədliyyə naziri Fikrət Məmmədov Xaçmaz regional ədliyyə idarəsində Xaçmaz, Quba, Qusar və digər rayonlardan olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir Fikrət Məmmədov və Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Sonra ədliyyə naziri rayonda mədəni-tarixi abidələrlə tanış olub.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerində həllini tapıb. Digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri yerli məhkəmə və ədliyyə orqanlarının işi ilə tanış olub, bu sahədə fəaliyyətə cəlb olunmuş gənc könüllülərlə görüşüb, ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.

Ədliyyə naziri müşavirədə Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın hərtərəfli, o cümlədən regionların sosial-iqtisadi tərəqqisini vurğulayıb. Fikrət Məmmədov nazirliyin ötənilki fəaliyyətinin yekunlarından bəhs edərək işin dövlətimizin başçısının tələbləri səviyyəsində təkmilləşdirilməsi, o cümlədən innovativ metodlar tətbiq edilməklə səmərəli təşkili, könüllülük institutunun ədliyyə sahəsində daha geniş təşviqi, habelə vətəndaş məmnunluğunun yüksəldilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması, korrupsiyanın yolverilməzliyi ilə bağlı tapşırıq və tövsiyələr verib, ölkə rəhbərinin 2018-ci il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər Dövlət Proqramı"nın icrası ilə bağlı nazirliyin üzərinə mühüm vəzifələrin düşdüyünü qeyd edib.

Eyni zamanda, dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə 2018-ci il dekabrın 28-də qəbul edilmiş Mülki Prosessual Məcəllədə və "Məhkəmələr və hakimlər haqqında" Qanunda əsaslı dəyişikliklər barədə yeni qanunların məhkəmə fəaliyyətinin təkmilləşdirilməsinə, işin səmərəliliyinin və keyfiyyətinin artırılmasına, iş yükünün azaldılmasına, "Elektron məhkəmə" sistemi geniş tətbiq olunmaqla işlərə daha operativ baxılmasına xidmət etdiyi qeyd olunub, qanunvericiliyin yeni müddəalarının dərindən öyrənilməsinin və düzgün tətbiqinin zəruriliyi bildirilib.

# Buzovnadakı psixonevroloji sosial xidmət müəssisəsinin yenidənqurmadan sonra açılışı olub

## HEYDƏR ƏLİYEV FONDUNUN VİTSE-PREZİDENTİ LEYLA ƏLİYEVA AÇILIŞDA İŞTİRAK EDİB

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fevralın 15-də paytaxtın Buzovna qəsəbəsindəki 1 saylı psixonevroloji sosial xidmət müəssisəsinin binasının əsaslı yenidənqurmadan sonra açılışında iştirak edib.**









AZƏRTAC xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun 1 saylı psixonevroloji sosial xidmət müəssisəsi 1974-cü ildə yaradılıb. 2018-ci ildən başlayaraq Heydər Əliyev Fondu tərəfindən bu müəssisədə əsaslı yenidənqurma işləri aparılıb.

Yaradılan şəraitlə tanış olan Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya məlumat verildi ki, yenidənqurma işlərindən sonra burada yaşayanların sağlamlığı və rahatlığı üçün müasir standartlara uyğun şərait yaradılıb. 217 çarpayılıq müəssisədə akt zalı, kinoteatr, kitabxana, arxiv, sakinlərin qidalanması üçün yeməkxanalar, eləcə də mərkəzləşmiş mətbəx, asudə vaxtın təşkili və istirahət guşələri, izolyasiya və tibb otaqları yaradılıb, mebel və avadanlıqlarla təchiz edilib. Müəssisə əlilliyi olan şəxsləri qəbul edərək münasib yaşayış şəraiti ilə təmin etmək, abilitasiya və reabilitasiya xidmətlərini həyata keçirmək üzrə fəaliyyət göstərir. Buraya sosial xidmətə ehtiyacı olan psixotik simptomatika mərhələsinə çatmayan şəxslər qəbul edilir.

Ölkəmizdə sağlamlıq imkanları məhdud olan, xüsusi qayğıya ehtiyac duyan şəxslərin tibbi və sosial reabilitasiyasının gücləndirilməsi istiqamətində mühüm addımlar atılır. Dövlət bu qəbildən olan şəxslərin çoxsaylı sosial proqramlara, o cümlədən reabilitasiya, pulsuz istirahət və texniki-bərpa təminat proqramlarına cəlb olunmasını həyata keçirir. Bu müəssisədə yaradılan şərait bir daha sübut edir ki, dövlət səviyyəsində bu istiqamətdə reallaşan tədbirlərə Heydər Əliyev Fondunun da xüsusi töhfəsi var. Bu cür layihələrin icrası həm də onu göstərir ki, nəcib təşəbbüsləri və layihələri ilə seçilən Heydər Əliyev Fondunun xüsusi qayğıya ehtiyacı olanların sosial məsələlərinin həlli, onların müalicə və reabilitasiya işinin yüksək səviyyədə təşkil edilməsi istiqamətində həyata keçirdiyi tədbirlər davamlı xarakter alıb.

Müəssisənin həyətində abadlıq işləri aparılıb, ərazi yaşıllaşdırılıb, müxtəlif növ ağaclar əkilib, istirahət guşələri yaradılıb.

Sonda xatirə şəkli çəkdirildi.

# "Toplan" sahibsiz itlərə qayğı mərkəzinin növbəti hissəsinin təməli qoyulub



**Heydər Əliyev Fondunun və Bakı Şəhər İcra Hakimiyyətinin sahibsiz itlərlə işin təkmilləşdirilməsi üzrə birgə layihəsi çərçivəsində paytaxtın Balaxanı qəsəbəsində yaradılan "Toplan" sahibsiz itlərə qayğı mərkəzinin fevralın 15-də açılışı olub.**





AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva açılışda iştirak edib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya məlumat verildi ki, Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil-Təsərrüfat Kommunal Departamentinin sanitariya və texniki təmizlik idarəsinin ərazisində yerləşən mərkəzdə yenidənqurma işlərinə 2018-ci ilin oktyabr ayında başlanılıb. Ərazisi 2500 kvadratmetrə yaxın olan mərkəz üç inzibati-təsərrüfat binasından ibarətdir.

Leyla Əliyeva mərkəzlə tanışlıq zamanı itlərin saxlanılması şəraitinə baxdı. Bildirildi ki, burada itlərin saxlanılması üçün xüsusi yerlər - volyerlər, karantin-reabilitasiya qəfəsləri yaradılıb. Ərazi abadlaşdırılıb, işıqlandırma və havalandırma sistemləri qurulub. Qurumun əməkdaşları Bakı ərazisində sahibsiz itləri toplayaraq mərkəzə təhvil verəcəklər. Burada həmin heyvanlar peyvəndlənəcək, reproduktiv fəaliyyətlərinin dayandırılması məqsədilə müvafiq əməliyyat aparılacaq. Hər bir it çiplə təmin olunacaq. Yardım göstərildikdən sonra itlər yenidən tutulduqları əraziyə buraxılacaqlar. "Toplan" mərkəzinin baytar bloku müayinələrin aparılması, sterilizasiya, müalicə və heyvanlara mikroçipin yerləşdirilməsi üçün müasir tibbi avadanlıq və preparatlarla təchiz edilib. Həmçinin burada əməliyyata hazırlıq, əməliyyat, müayinə, ordinator, baytarlıq preparatlarının saxlanması otaqları var. Sahibsiz itlərin daşınması və təcili tibbi yardım üçün avtomobillərlə təchiz olunan mərkəz həftə ərzində bütün zəruri prosedurlardan keçirilmək şərti ilə 30-50 it qəbul etmək gücündədir. Buraya daxil olmuş sahibsiz itlərin mərkəzləşdirilmiş qeydiyyatı sistemi də yaradılıb. Heyvanın tutulduğu tarix və ünvan, vəziyyəti, həyata keçirilmiş tibbi yardımlar və mikroçipin nömrəsi xüsusi informasiya bazasına daxil edilir. Sərbəst buraxılan və sahiblərini tapan itlər barədə də bazaya müvafiq məlumatlar yerləşdirilir. Mərkəzin əməkdaşları - baytarlar, itlərin toplanması ilə məşğul olan şəxslər və digər personal üçün xarici mütəxəssislərin iştirakı ilə təlimlər keçirilib.

Sonra "Toplan" mərkəzinin növbəti hissəsinin təməli qoyuldu.

Bildirildi ki, sonrakı mərhələdə bir neçə təsərrüfat binası və 80-ə yaxın itin saxlanılması üçün xüsusi yer - volyer və karantin-reabilitasiya qəfəsləri yaradılacaq.

Qeyd edək ki, 2018-ci ildən başlanan layihə sakinlərin təhlükəsizliyinin təmin edilməsi, sahibsiz heyvanlara qayğı göstərilməsi, həmçinin cəmiyyətin onlara qarşı münasibətinin dəyişdirilməsi məqsədi daşıyır. Layihə çərçivəsində, eyni zamanda, müxtəlif maarifləndirmə işləri aparılır. Həmçinin layihə barədə mərkəzin internet saytı, sosial şəbəkələrdəki səhifələri vasitəsilə məlumat əldə etmək mümkündür.

# AKADEMİK ARİF PAŞAYEV

# intellektual və mənəvi səma zirvəsində

**Elmin inkişaf tarixi belə bir həqiqətə şahidlik edir ki, onun müxtəlif mərhələlərində əldə olunan bütün uğur və nailiyyətlər, sosial tərəqqini stimullaşdıran konseptual baxışlar, sivilizasiyanı irəliyə doğru hərəkət etdirən elmi kəşflər, innovativ yeniliklər bilavasitə yüksək mənəvi-əxlaqi keyfiyyətləri və dərin intellekti özündə birləşdirən şəxsiyyət fenomeni ilə bağlıdır.**

Məhz istedadlı, kreativ, parlaq zəkaya malik, aydın vətəndaş-ziyalı mövqeyi ilə seçilən alim şəxsiyyəti olduğu halda, elmin bu və ya digər sahəsində xüsusi rol oynayan məktəblər yaranır, həmin məktəblərin timsalında şəxsiyyətin cəmiyyətdəki mənəvi-intellektual təsir imkanları onilləri, yüzilləri əhatə edərək uzunmüddətli və fasiləsiz xarakter alır. Çox sevindirici haldır ki, qədim və zəngin elmi ənənələrə malik Azərbaycan elmində, xüsusən onun ən parlaq dövrü hesab olunan XX əsrdə belə alim-şəxsiyyətlər kifayət qədərdir. Onların sırasında Azərbaycanda fizika, texnika və aerokosmika elminin inkişafında müstəsna rol oynamış, respublikamızda elmin, təhsilin təşkilində xüsusi xidmətlər göstərmiş görkəmli alim, bacarıqlı elm və təhsil təşkilatçısı, fəal ictimai xadim akademik Arif Mir Cəlal oğlu Paşayevin adı xüsusi mövqeyə malikdir.

Akademik Arif Paşayev XX əsr Azərbaycan humanitar-elmi və ədəbi düşüncəsinin görkəmli nümayəndəsi, tanınmış yazıçı, ədəbiyyatşünas alim, pedaqoq Mir Cəlal Paşayevin ailəsində dünyaya göz açmışdır. Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafında əvəzedilməz xidmətlər göstərmiş bir alim və istedadlı yazıçı olmaqla yanaşı, eyni zamanda yüksək mənəvi-əxlaqi dəyərlər daşıyıcısı olan bir şəxsiyyət olmuşdur. Onun daxili aristokratizmi, davranışındakı sambal, başqalarına münasibətdə sakral-mənəvi dəyərlərə bağlılıq heç bir halda "sovet ziyalısı" qəlibinə sığmamışdır. Məhz bu dəyərlərin daşıyıcısı olmağın nəticəsidir ki, "Mir Cəlal bütövlüyü", "Mir Cəlal xeyirxahlığı", "Mir Cəlal dürüstlüyü", "Mir Cəlal sözü"... ədibin öz sağlığında elmi və ədəbi ictimaiyyət arasında, ümumiyyətlə cəmiyyətin müxtəlif sferalarında şəxsiyyət fenomeninin meyarına, etalonuna çevrilmişdir.

Ot kökü üstə bitər, - deyiblər. Akademik Arif Paşıyev Mir Cəlal müəllimin övladı olaraq bu ailənin mənəvi və intellektual ənənələrini ləyaqətlə davam etdirmişdir. Mir Cəlal müəllimin qürurla və uzaqgörənliklə söylədiyi "Mənim ən böyük əsərim ailəmdir" - fikri bu ailənin timsalında öz parlaq təsdiqini tapmışdır. Məhz belə bir şəxsiyyətin tərbiyəsinin nəticəsidir ki, Arif Paşayev insanlara münasibətdə yüksək mədəniyyət, təmənnasızlıq və xeyirxahlıq ənənəsini yaşatmış, onun fəaliyyətinin əsas prioritetlərini elm, təhsil və yüksək mənəvi dəyərlərə sadiqlik təşkil etmişdir. Müstəqil dövlətimizin siyasi və ictimai həyatında, elm və təhsildə təkrarolunmaz söz sahibi olan Bu nəslin nümayəndələri Mir Cəlal müəllimin "Mənim ən böyük əsərim ailəmdir" ifadəsinə qoyduğu mənanın sərhədlərini Azərbaycan sərhədlərinə qədər genişləndirir, əsl ədibə məxsus olan və yalnız illər keçdikcə sirrini açan həqiqətə çevirirlər.

Akademik Arif Paşayevin həyat bioqrafiyası olduqca çoxşaxəli və zəngindir. Onun keçdiyi yol məna və dəyəri ilə xüsusilə seçilir. O, hələ ilk gənclik illərindən rahatlığını axtarışlarında tapıb. Bir gənc olaraq elm üçün ürəyinin qapıları açıq, sevgisi dəniz qədər geniş olub. Yuxusuz gecələrin mütaliəsi nəticəsində elmin həqiqət yolu öyrənildikcə şirinləşib, böyük arzuları həyatında reallığa çevrilib. Bir anlığa dünyada düşüncə sahiblərinin fikirlərini xatırlamaq yerinə düşərdi. Dahi Viktor Hüqo yazırdı: "Tərbiyə - nəfslə, təhsil - biliklə bağlıdır. İnsan yetkinləşdikcə bu iki proses bir-birini tamamlayır", Onore de Balzak isə "Biliyin ağacı olmaq üçün zəhmətin köləsi olmaq lazımdır" - demişdir. Odur ki, aldığı tərbiyə ilə həyatını elmdə və təhsildə görən akademik Arif Paşayev çətin yolları düz getmək üçün daima narahatlıqda və axtarışda olmuşdur.

O, Odessa Elektrotexniki Rabitə İnstitutunda ali təhsil almış, əmək fəaliyyətinə 1957-1958-ci illərdə Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) laborant vəzifəsində başlamış, Azərbaycan Milli Elmlər Akademiyasında davam etdirmişdir: 1958-ci ildə AMEA Astrofizika sektorunda kiçik elmi işçi, 1959-cu ildən bu günə kimi AMEA Fizika İnstitutunda kiçik elmi işçi (1959-1961), böyük elmi işçi (1966-1971) və laboratoriya müdiri (1971-1996) vəzifələrində çalışmışdır. 1966-cı ildə "Yüksək və ifratyüksək tezliklərdə yarımkeçiricilərin parametrlərini ölçmək üçün kontaktsız üsul və cihazların işlənməsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək, texnika elmləri namizədi, 1978-ci ildə "Yarımkeçiricilərin tədqiqində qeyri-dağıdıcı üsulların fiziki əsasları, inkişaf prinsipləri və tətbiq perspektivləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək, fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsini almışdır. Alim 1993-97-ci illərdə fotoelastik mühitlərdə akustooptik qarşılıqlı təsirin xüsusiyyətlərini tədqiq edərək, bu effekti bir sıra radiofizika və radiotexnika məsələlərinin həllinə tətbiq etmişdir.

Arif Paşayev 1996-cı ildən indiyədək "Azərbaycan Hava Yolları" Dövlət Konserni Milli Aviasiya Akademiyasının rektorudur.

Fizika sahəsində əldə etdiyi nailiyyətlərinə görə Arif Paşayev 1989-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2001-ci ildə isə həqiqi üzvü seçilmişdir.

Akademik Arif Paşayevin multidissiplinar xarakterli elmi fəaliyyəti fizika, texnika və aerokosmika elmlərinin mühüm prioritet istiqamətlərini özündə birləşdirir. O, yarımkeçirici materialların mühüm elektrofiziki parametrlərini (keçiricilik, yükdaşıyıcıların yaşama müddəti, yürüklüyü və s.) ölçmək məqsədilə yüksək tezlikli cərəyanlardan istifadə etməklə materialı zədələmədən kontaktsız ölçü üsullarının elmi əsaslarını yaratdı, müxtəlif təyinatlı çeviricilər sahəsində yeni elmi istiqamətin əsasını qoydu.



Arif Paşayevin elmi - tədqiqat işlərinin digər bir hissəsi fotoelastik material kimi daha sadə hazırlanma texnologiyasına malik olan kristallik kvars əsasında akustooptik modulyatorun işlənməsidir. O, fotoelastik mühitlərdə akustooptik qarşılıqlı təsirin xüsusiyyətlərini tədqiq edərək, bu effekti bir sıra radiofizika və radiotexnika məsələlərinin həllinə tətbiq etmişdir. Alim siqnalların zaman təhriflərinə korreksiyasının, çevrilməsinin, tezlik modulyasiyalı siqnalların izləyici qəbulunun akustooptik üsullarını və bu üsulları reallaşdıran qurğuları sintez etmiş, onların parametrlərini araşdırmışdır. Alınmış nəticələr bir sıra xarici ölkələrin nüfuzlu elmi nəşrlərində dərc edilmişdir. O, müxtəlif elektromaqnit sahələrinin keçirici mühitlə qarşılıqlı təsirinin tədqiqi nəticəsində maşınqayırma məmulatlarına cərəyan burulğanları ilə nəzarət üçün yeni üsullar və qurğular yaratmışdır. Dəqiq, inteqral miniatür çeviricilərin, temperatur, təyziqə, nəmliyə, gücə, təcilə, aşınmaya və titrəyişə həssas elementlərin yaradılması sahəsində də Arif Paşayev mühüm nəticələr əldə etmişdir. Bu elementlər gəmiqayırmada, neftmaşınqayırmada, müdafiə, tibb sənayelərində və digər sahələrdə geniş tətbiq edilir.

Akademik Arif Paşayev respublikamızda yeni perspektivli elm sahələrinin inkişafını daim diqqətdə saxlamış, təşəbbüsü və dəstəyi hesabına süni peykləri ilə kosmik ölkələr sırasına daxil olan dövlətimizdə Milli Aviasiya Akademiyasının, AMEA-nın Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının və "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin birgə səyləri nəticəsində Fizika İnstitutunun nəzdində "Kosmos və yerətrafı kosmik fəzanın fizikası" laboratoriyası yaradılmışdır. Görkəmli fizik Milli Aviasiya Akademiyası, AMEA-nın Təcrübə-Sənaye Zavodu və "Zeytun" Elm-İstehsalat Müəssisəsi birgə yüksək elektrik izolyasiyalı, korroziyaya və rütubətə davamlı, səs dalğalarının yayılması üçün şəffaf kipləndirici olan yeni poliefiruretan əsaslı lak-kompaundun, aviasiya təyinatlı aşağı temperaturlu sürtkü materialları və hidravlik mayelərin, həlledicilərin istehsalı texnologiyasını işləmişdir. Alınan nailiyyətlərin orijinallığı Azərbaycanın və Rusiya Federasiyasının patentləri ilə təsdiqlənmişdir.

Akademik Arif Paşayev səmərəli elmi və elmi-təşkilatı işlə yanaşı, olduqca faydalı pedaqoji fəaliyyətlə də məşğuldur. Uzun müddətdir ki, rektoru olduğu Milli Aviasiya Akademiyası respublikamızın qabaqcıl ali təhsil müəssisələrindən birinə çevrilmiş, burada tədris prosesi və elmi-tədqiqat işləri yüksək səviyyədə təşkil olunmuş, yeni müasir kafedra və ixtisaslar açılmışdır. Bütün bunların nəticəsində Akademiya Dövlətlərarası Aviasiya Komitəsinin qərarı ilə "Mülki Aviasiya ali təhsil müəssisəsi" sertifikatına layiq görülmüş və Beynəlxalq Mülki Aviasiya Təşkilatının ali təhsil müəssisələrinin siyahısına daxil edilmişdir. Müstəqil respublikamız üçün son dərəcə vacib kadrları hazırlayan Milli Aviasiya Akademiyasında təhsilin səviyyəsinin yüksəldilməsi üçün onun şəxsi nəzarəti, kollektivdə sağlam elmi-pedaqoji mühitin yaradılması və gündəlik qayğısı, yüksəkixtisaslı mütəxəssislərin yetişdirilməsinə göstərdiyi diqqət qazanılan nailiyyətlərin sırasındadır. Rəhbərlik etdiyi akademiyanın nəzdində yaratdığı Elmi-Tədqiqat Aviasiya İnstitutunda Xüsusi Konstruktor Bürosunu və Təcrübi-Sınaq Bölməsini özündə birləşdirən Elmi-İstehsalat Birliyi aviasiya sahəsində ən yüksək səviyyədə tədqiqatlar aparmağa imkan verir. Bu da elmi nəticələrin tətbiqini sürətləndirməyə olduqca əlverişli şərait yaradır. Əbəs yerə deməmişlər ki, elm sərkərdə, təcrübə isə onun əsgəridir.

Arif Paşayev 300-dən artıq elmi əsərin müəllifidir. Onun çoxsaylı monoqrafiya və ixtiralarında əks olunan fundamental elmi-texniki nəticələri, yüksəkixtisaslı elmi kadrların hazırlanmasındakı göstəriciləri, faydalı elmi, elmi-təşkilati və pedaqoji fəaliyyəti, Azərbaycanda ali aviasiya təhsilinin müasir səviyyədə təşkili müstəsna xidmətlərindəndir.

Elm yolunda yorulmaz alim, akademik Arif Paşayev Azərbaycan Respublikasının "Şöhrət", "Şərəf", "İstiqlal" ordenləri ilə təltif olunmuş, Əməkdar elm xadimi, Azərbaycan Dövlət mükafatı laureatı, akademik Yusif Məmmədəliyev adına medal, "SSRİ-nin ixtiraçısı" fəxri adlarına layiq görülmüş, Azərbaycan Mühəndislər Akademiyasının prezidenti, Beynəlxalq Mühəndislər Akademiyasının, Beynəlxalq Nəqliyyat Akademiyasının, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının və Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki seçilmişdir.

Həyatını elmə bağlayaraq bu yola sadiq qalan, elmə sədaqətlə xidmət edən alim fədai bir şəxsiyyətə çevrilmişdir. Təkcə ölkəmizdə deyil, onun hüdudlarından çox-çox uzaqlarda onu görkəmli alim, təşəbbüskar təşkilatçı, başlıcası isə qayğıkeş bir insan kimi tanıyırlar. Onun nadir iş qabiliyyəti, yaradıcılıq enerjisi və aktiv vətəndaş mövqeyi müstəqil Azərbaycan vətəndaşları üçün örnəkdir.

Akademik Arif Paşayevin məxsusi müdrikliyi, insanlara qarşı xeyirxahlığı, tükənməz enerjisi və nikbinliyi uca görünən zirvənin varlığıdır. Onu tanıyan hər kəs Vətənə təmənnasız xidmətin, qarşıya qoyulan məqsədə çatmaq bacarığının, fədakarlığın, yüksək ideallara sadiqliyinin şahididir. Bütün bunlar ani uğurlar deyil, gərgin əməyin, yuxusuz gecələrin, elmi axtarışların məntiqinin işığı və nəticəsi, yuxarıda qeyd olunan yüksək dövlət mükafatları, fəxri adları həyatının parlaq qələbəsi olmuşdur. Ətrafa saçılan bu işıq bizlərdə inam yaradır ki, onun mənbəyi olan görkəmli alim və pedaqoq hələ uzun illər xalqımıza, Vətənimizə dəyərli töhfələr verəcəkdir. Məhz bu ümdə keyfiyyətlərinə görə Arif Mir Cəlal oğlu xalqın dərin hörmətini qazanan nadir şəxsiyyətlərdəndir.

O, yüksək elmi-praktiki, pedaqoji və yaradıcılıq potensialına malik olmaqla yanaşı, vətəndaşlıq, vətənpərvərlik hissləri ilə yaşayıb-yaradan, ictimai işlərdə yorulmadan əmək sərf edən, gənc nəslin təlim-tərbiyəsinə, onların yüksək vətənpərvərlik ruhunda tərbiyə olunmalarına xüsusi diqqət göstərən qayğıkeş rəhbər, səmimi insan və xeyirxah şəxsiyyətdir.

Sosial təsisat olaraq ailənin çox həssas mərhələyə qədəm qoyduğu müasir cəmiyyətdə Arif Paşayevin milli mentalitetlə ümumbəşəri dəyərlərin daşıyıcısı olan ailəsi olduqca gözəl bir örnəkdir. Onun tərbiyəsini almış və ölkəmizin layiqli vətəndaşları olan övladları, Mehriban xanım Əliyeva və Nərgiz xanım Paşayeva milli dövlət quruculuğunda, cəmiyyətin sosial-mədəni həyatında, elmin, təhsilin inkişafında yaxından iştirak edir, xüsusən Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, qədim və zəngin Azərbaycan mədəniyyətinin təbliği istiqamətində xüsusi səy göstərirlər. Milli mentalitetimizdə xanımlığın olduqca özəl bir mövqeyi vardır. Bu mövqeni aşağıdakı şeir parçası olduqca dəqiq ifadə edir:

***Həyat bir evdirsə, övlad işıqdır,***
***Oğul arxadırsa, qız yaraşıqdır.***

Mehriban xanım Əliyeva və Nərgiz xanım Paşayeva öz fəaliyyətləri ilə sübut etmişdirlər ki, milli düşüncədə xanıma ayrılan gözəllik, zəriflik, dəyəri ilə nəinki bir ailəyə, bir elə, bir obaya, bütöv bir xalqa arxa, dayaq olmaq dəyərini vəhdətdə birləşdirmək mümkündür.

Vaxtilə dahi şair yazırdı:

***Cahanda hansı sərvət təsadüf etsə mənə,***
***Səcdə etməkdəyəm yalnız elmi-ürfanə.***
***Fəqət budur şöhrətim, izzətim, cənnətim mənim,***
***Həyatda ən böyük məqsədim mənim!***

Akademik Arif Paşayevin ömür yolu elmə, ürfana, mədəniyyətə, əxlaqa səcdənin ən böyük nümunələrindən biridir. Belə bir fasiləsiz və səmimi "ibadətin" nəticəsidir ki, bu dəyərlər onun şəxsiyyətini öz mənəvi səmasının ucalıqlarına qaldırmışdır. Bu mənəvi ucalığın zirvəsinə yüksəlmiş Arif Mir Cəlal oğlu Paşayev bu günlərdə fiziki ömrün də 85 illik zirvə məqamına qədəm qoyur. Belə bir əlamətdar gündə Arif Paşayevi elmi ictimaiyyət adından, şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm. Arzu edirəm ki, onun bu yubileyi intellektdən, zəhmətdən, həmçinin vətən və xalq sevgisindən yoğrulmuş elmi, pedaqoji və ictimai fəaliyyətinin yeni, daha parlaq və məhsuldar mərhələsinin başlanğıcı, növbəti zirvələrə doğru uçuşun start məqamı olsun!

**Akif Əlizadə**
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik

YUBİLEY - 50

# Siyavuş Novruzov: Sadəcə ömür sürməmişəm, mən yaşamışam

## TANINMIŞ İCTİMAİ-SİYASİ XADİMLƏ YÜZÜN YARISINDA SƏMİMİ SÖHBƏT

*Yeni Azərbaycan Partiyasının (YAP) inzibati binasına yetişəndə tanınmış ictimai-siyasi xadim, Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin komitə sədri, hüquq elmləri üzrə fəlsəfə doktoru Siyavuş Novruzovun 50 illik yubileyi haqqında yazı hazırlamaq məqsədilə gələn daha bir neçə jurnalist həmkarımız da gözləyirdi. Yubilyar müxbirlərlə səmimi şəkildə salamlaşdıqdan sonra gərgin iş qrafikinə baxmayaraq jurnalistləri onların istəyinə görə ayrı-ayrılıqda qəbul etdi, onun həyatının müxtəlif sferası ilə maraqlanan hər kəsin suallarını cavablandırmaq üçün ayrıca vaxt ayırdı.*

*Maraqlı və şərəfli həyat yolu keçən Siyavuş Novruzov 17 fevral 1969-cu ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Cəhri kəndində dünyaya gəlib. 1990-1995-ci illərdə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini, 1999-2002-cı illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət və bələdiyyə idarəetməsi fakültəsini bitirib. 1990-cı ildən "Əlincə" Xeyriyyə Cəmiyyətinin şöbə rəisi, məsul katibi işləyib. 1995-2005-ci illər YAP-ın Gənclər Birliyinin sədri olub. Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak etdiyinə görə "1-ci dərəcəli Vətənə xidmət ordeni" ilə təltif olunub.*

*Müsahibimiz Əfqanıstanda döyüşüb, 1990-1993-cü illərdə Qarabağ uğrunda, həmçinin Sədərək döyüşlərində fəal iştirak edib. Qarabağ müharibəsi veteranıdır. Sərbəst güləş üzrə idman ustasıdır. Müxtəlif istiqamətlərdəki fəaliyyətinə görə onlarla mükafat, təşəkkürnamə, orden və medallarla təltif edilib. Bunlar özü haqqında çox danışmağı sevməyən yubilyarın avtobioqrafiyasının internetdən hamıya məlum olan faktlarıdır. Özünün danışdıqları isə indiyədək bizə məlum olmayan, məhz "İki sahil"in oxucuları ilə bölüşdüyü ədəbi-mədəni zövqləri, dünyaya baxışı və müxtəlif mövzular haqqında fəlsəfi düşüncələri idi...*



### ÜMUMMİLLİ LİDERİN RƏHBƏRLİYİ İLƏ PARTİYA VƏ DÖVLƏT QURUCULUĞUNDA YAXINDAN İŞTİRAK ETMƏK XOŞBƏXTLİYİ

"Naxçıvandan Bakıya gələndə 17 yaşım vardı. Hərbi xidmətə 18 yaşımda Bakıdan getmişəm. 1987-ci ildən 90-cı ilə qədər, müxtəlif hərbi məktəblər keçmişəm. Hərbi xidmətdən qayıtdıqdan sonra milli azadlıq hərəkatına qoşulmuşam. Ömrümün 33 ilini Bakıda və digər yerlərdə yaşamışam. Amma təbii ki, Naxçıvanla heç vaxt əlaqəmi kəsməmişəm. Ümummilli Lider Naxçıvanda olanda mütəmadi gedib-gəlirdim. Naxçıvan onda həm o vaxtkı iqtidar, həm də ermənilər tərəfindən blokadaya alınmışdı. Ona görə də Rusiyada və həmin vaxt Bakıda çıxan "İki sahil", "Səs" və başqa qəzetləri, həmçinin Ümummilli Lider haqqında ayrı-ayrı tanınmış siyasətçilərin, məşhur ziyalıların yazılarının çap edildiyi dövri nəşrləri həftədə bir dəfə, iki həftədən bir aparıb çatdırırdım, eyni zamanda, Ulu Öndərin verdiyi materialları mətbuatda çap etdirmək üçün Bakıya gətirirdim. O dövrdə bu, çox çətin idi. Naxçıvana ancaq hava yolu ilə gediş-gəliş vardı, oraya 35-50 nəfərlik təyyarələr uçurdu. Camaat Naxçıvana getmək üçün günlərlə aeroportda yatırdı. Təyyarə bileti tapılmırdı. Naxçıvan Nümayəndəliyinin iki bronu vardı, onun birini həmişə mənə verirdilər. Nə qədər çətin idisə, mənim üçün bir o qədər də maraqlı idi. Həmin vaxtlar Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinin tələbəsi idim. Həyatımdakı ən böyük dönüş nöqtəsi Ümummilli Liderin rəhbərliyi ilə ictimai-siyasi fəaliyyətə başlamağımdır. Ondan həddindən artıq çox şey öyrənmişəm. Ümummilli Lider dahi siyasətçi, əvəzolunmaz insan və böyük azərbaycanlı olmaqla yanaşı, gənclərin yetişib formalaşmasında, dünyagörüşünün artmasında, gələcəyə baxışının müəyyənləşməsində misilsiz xidmətləri olan böyük müəllim idi. Mənim xoşbəxtliyim ondadır ki, Ümummilli Liderin rəhbərliyi ilə həm partiya, həm dövlət quruculuğunda yaxından iştirak etmişəm.

### ƏDƏBİYYATA İNDİ DƏ BÖYÜK MARAĞIM VAR

Adımı o vaxtlar filologiya fakültəsində təhsil alan böyük qardaşım qoyub. Bildiyiniz kimi, Siyavuş adı Firdovsinin məşhur "Şahnamə" əsərindəndir, sonralar böyük Hüseyn Cavid də həmin əsərin motivləri əsasında "Səyavuş" faciəsini qələmə alıb. Sovet dövründə "Şahnamə"ni bizə səhv izah edirdilər. Guya bu əsər Sultanın xoşuna gəlmədiyinə görə simiclik edib müəllifə qızıl yox, gümüş verib. Əslində Sultan Firdovsiyə "Şahnamə"də türkləri aşağıladığına görə qızıl verməyib.

Ailəmizdə hamı ədəbiyyatı sevirdi. Mən özüm də əvvəlcə filologiya fakültəsinə daxil olmaq istəyirdim. Amma hərbi xidmətdən qayıtdıqdan sonra özümü o sahədə görmədim, fikrimdən daşınıb hüquq ixtisasını seçdim. Ancaq ədəbiyyata indi də böyük marağım var. Ədəbi jurnallara abunə oluram, "Ədəbiyyat qəzeti"ni alıram, oradakı maraqlı yazıları oxuyuram.



1991-92-ci illərdə "Səs" qəzetində cəmiyyəti maraqlandıran mövzularda siyasi, publisistik, ədəbi yazılarım çap olunub, orada uzun müddət hekayələrim işıq üzü görüb. Partiya quruculuğu işinə, ictimai-siyasi proseslərə, ərazilərimizin müdafiəsinə başım qarışandan sonra qələm ikinci plana keçdi. İndi xarici səfərlərdə olanda, işdən bir az ayrılıb tək qalanda xırda-xırda cızma-qaralar edirəm.

Vaxtilə deyirdilər ki, Böyük Oktyabr sosialist inqilabı və İkinci Dünya müharibəsi olmasaydı, Sovet ədəbiyyatı boş qalardı. Nə qədər kolxoz-sovxozdan yazmaq olardı? Ona görə də bu iki böyük mövzu o vaxt Sovet ədəbiyyatını və kinematoqrafiyasını zənginləşdirdi.

Şoloxovun "Sakit Don", "İnsanın taleyi" və digər yazıçıların əsərləri həmin mövzularda yazılmış dəyərli örnəklərdir. Vaxtilə çox mütaliə edirdim. Bizim dövrümüzdə ən məşhur əsər Viktor Hüqonun "Səfillər"i idi. Hər adamın işi deyildi onu oxumaq, böyük həcmli roman idi. Mark Tvenin, hər iki Tolstoyun - həm Lev, həm Aleksandrın əsərlərini oxumağı sevirdim. Oradan da keçirsən Qərb ədəbiyyatının tanınmış imzalarına, sonra da adlayırsan Latın Amerikası ədəbiyyatına - Markesə və sair. Belə-belə gəlib çıxırıq bu günümüzə...

Əfqan əsilli ABŞ yazıçısı Xalid Hüseyninin yaradıcılığını bəyənirəm, onun "Çərpələng uçuran", "Min möhtəşəm günəş" əsərlərini oxumuşam. Bir dəfə səhv etmirəmsə, Bolqarıstanda keçirilən NATO Parlament Assambleyasında özü ilə görüşmüşəm. Orada Əfqanıstanla bağlı çıxışı vardı. Onunla bir neçə saat çox maraqlı söhbətimiz oldu. Əfqanıstanla bağlı yazısında əksini tapan detallar da müəyyən mənada mənə tanış idi, o detallarla bağlı ətraflı fikir mübadiləsi apardıq.

Keçmiş dövrdən fərqli olaraq indi aktual mövzular da çoxdur, yanaşma tərzi də müxtəlifdir. Bizdə də yaxşı yazan yeni gənc nəsil yazarlar yetişib. Aqşin Yenisey, Kəramət Böyükçöl, Aysel Əlizadənin yazılarını oxuyuram. İndi adını xatırladığım bunlardır, əslində istedadlı gənc yazarların sayı xeyli çoxdur. Düşünürəm ki, gənc yazıçı və şairlərimizə şərait yaratmaq lazımdı. Düzdür, indiki gənclərin çap problemi yoxdu, amma tarixə nəzər salanda dahi Məhəmməd Füzulidən üzü bu yana yazıçı və şairlərin böyük əksəriyyətinin məcazi təbirlə ifadə eləsək, həmişə "ağça problemi" olub. Şərait yaradılmalıdır deyəndə, yazarın sərbəst şəkildə yaza bilməsi üçün bu ağça probleminin həll olunmasını nəzərdə tuturam" (gülür).

### ƏN YADDAQALAN DOĞUM GÜNÜ HƏDİYYƏM HÜQONUN İKİCİLDLİYİ OLUB

Musiqi zövqüm qarışıqdır, gözəl olan hər şeyi dinləyirəm. Klassik musiqi vurğunuyam, eyni zamanda, ispan musiqisini sevirəm. Xulio İqlesias, Co Dassen, Rozembaum, Laskovıy May, Toto Kutunyo, Çelentano sevimli ifaçılarımdandırlar. Milli musiqimizdən muğama qulaq asıram. Görünür yaşla əlaqədardır, yaşlandıqca biz daha çox muğama meyil edirik.

Film zövqünə gəlincə, əsasən tarixi filmlərə baxıram. İslam dininin yaranması, İslam tarixi ilə bağlı çoxlu filmlər izləyirəm.

Ən yaddaqalan doğum günü hədiyyəm Viktor Hüqonun ikicildliyi olub. Gəncliyimdə dostlarımdan biri bağışlamışdı. Hələ də məndə durur, arabir vərəqləyirəm. Gəncliyimizdə kiminsə ad günü olanda ona kitab hədiyyə alırdıq. Kitab ən gözəl hədiyyədir, mənəvidir, qalan şeylər keçicidir, maddidir. Kitabı hər dəfə vərəqlədikcə yenidən o tarixə qayıdırsan, xatirələr təzələnir...

O vaxtlar həm də kitab tapılmırdı. Abdulla Şaiqin "Araz"ını, Qılman İlkinin "Şimal küləyi"ni oxumaq üçün dostlarımızla "kim bitirib kimə verəcək" növbəsinə düzülürdük. O dövr üçün bunlar böyük əsərlər idi. Həmin vaxtlar bəlkə də Mir Cəlalın "Bir gəncin manifesti"ni oxumayan, orada Bahar obrazının taleyinə görə ürək ağrısı keçirməyən qalmamışdı.

### İNSAN HƏRBÇİ OLMAĞI QƏRARA ALDISA, VƏTƏN SEVGİSİ ÖMÜRLÜK ONUN ÜRƏYİNƏ KÖÇÜR

Siyasətlə məşğul olmadığım gün olmayıb. O məşhur deyimdəki kimi - "Sən siyasətlə məşğul olmasan, o səninlə məşğul olacaq" (gülür). Heç cür mümkün deyil ki, ictimai-siyasi proseslərin içərisində bu qədər olan bir insan bircə gün siyasətdən kənarda qalsın.

Bir komandirim vardı, əsl hərbçi idi. O deyirdi ki, zabitin belindən kəməri düşdüsə, o öldü. Əsl hərbçi o kəməri taxıb, çantasını kürəyinə atanda lap 80 yaşında da olsa, özünü 20 yaşında hiss edir. İnsan bir dəfə hərbçi olmağı qərara aldısa, ömrünün axırına qədər hərbçi olur, Vətən sevgisi ömürlük onun ürəyinə köçür. Siyasət də belədi. Siyasətçi bircə gün siyasətlə məşğul olmasa, bu onun faciəsi olar.

### MƏN SÖZÜ BƏZƏMƏDƏN XALQIN BAŞA DÜŞƏCƏYİ DİLDƏ DEYİRƏM

Dediklərim bəzən kimlərəsə toxunur, çünki obyektiv danışıram. Mən sözü bəzəmədən xalqın başa düşəcəyi dildə deyirəm. İllər keçir, mən deyənə gəlirlər. Məsələn, həkim kiminsə çıxmış ayağını yerinə salmaq üçün müəyyən mənada ona əziyyət verməlidir. Acı həqiqəti söyləmək də həmin o çıxmış ayağı yerinə salmaq kimidir. Agrıdacaq, amma sağaldacaq...

İndi biz partiyanın gənclər birliklərinə sədrliklə bağlı attestasiya keçiririk. Bir gənc gəlir, danışığından görürsən ki, bu posta uyğun deyil. Mövcud ictimai-siyasi vəziyyəti aydın dərk etmir. Ola bilər ki, həmin gəncə bunu açıq şəkildə dediyim üçün bu onun xətrinə dəyə bilər. Amma bunu ona vaxtında demək lazımdır ki, o özü üçün doğru istiqamət müəyyənləşdirsin, indidən doğru yolunu tapsın. Bəlkə o, sabah sevilən bir müəllim olacaq, yaxud başqa sahədə yaxşı bir dövlət məmuru kimi yetişəcək.

### HƏR KƏSİN FƏRQLİ CƏNNƏT ANLAYIŞI VAR

Astrologiyaya inanıram, bürclər haqqında elm elə-belə yaranmayıb, bu, yüzillərin sınağından çıxıb. Dolça bürcündənəm. Dolçalar həm həddindən artıq xəyalpərəst, həm də həddindən artıq düşüncəli olurlar. "Özünüzü xoşbəxt ulduz altında doğulmuş hiss edirsinizmi" sualınıza gəldikdə isə xoşbəxtlik hər kəsin dünyagörüşünə uyğun bir anlayışdır. Biri xoşbəxtliyi var-dövlətdə, biri ailə səadətində, biri övladlarında, biri sevgidə görür. Bəzən belə fikir səsləndirirlər: "filankəs cənnətə düşəcək". Axı cənnət anlayışı birmənalı deyil. Hər kəsin fərqli cənnət anlayışı var. Şairin öz cənnəti var, dindarın öz cənnəti. Hərənin bir dünyagörüşü, bir baxış bucağı var. Bütün bu məsələlərə birtərəfli yanaşmaq düzgün deyil. Hər kəs özünün xoşbəxtlik meyarını özünə uyğun seçir və ona doğru addımlayır. Xoşbəxtəm deyə bilərəm.

Bu 50 ildə çox az insanın keçdiyi ömür yolunu keçmişəm.

Ömür simvolik məfhumdur. Yaşamaq və ömür sürmək başqa -başqa anlayışlardır. Ömür sürmək sadəcə rəqəmlərdir, rutin həyat tərzidir. Bəxtiyar Vahabzadənin bununla bağlı gözəl misraları var:

### ŞAM ƏGƏR YANMIRSA, YAŞAMIR DEMƏK

Onun da həyatı yanmağındadır.

Bu baxımdan ömrün çoxu- azı olmur, yaşananı və yaşanmayanı var. Keçdiyim həyat yoluna nəzər salanda ürəklə deyə bilərəm ki, indiyədək sadəcə ömür sürməmişəm, mən yaşamışam.

Dönüb keçmişə baxanda minnətdar olduğum məqamların təəssüfləndiklərimdən çox olduğunu söyləyə bilərəm. Ömrümün fəal həyat sürmədiyim bir dövrü olmayıb. Bu 50 ildə çox az insanın keçdiyi ömür yolunu keçmişəm".

**Sevinc Mürvətqızı,**
**Vüsal Cahanov, (fotolar)**
***"İki sahil"***

## TƏLƏBƏ TƏQAÜDLƏRİNİN ARTIMI:

# Təhsilin keyfiyyətinin yüksəldilməsinə qoyulan yeni sərmayə



Prezident İlham Əliyev tərəfindən sosial sferada həyata keçirilən islahatların tələbələri də əhatə etməsini ilk növbədə ölkə rəhbərinin təhsilə qayğısının əyani göstəricisi hesab etmək olar. Ölkə başçısının Fərmanı ilə "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli Fərmanında dəyişiklik edilməsi, eyni zamanda doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında, ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə sərəncamları tələbələrin sosial müdafiəsinin daha da gücləndirilməsi ilə yanaşı, təhsilin keyfiyyətinin yüksəldilməsinə də xidmət edir.

Bu mənada son illərdə ali təhsilin keyfiyyətinin yüksəldilməsi və bu sahənin təkmilləşdirilməsi istiqamətində aparılan islahatların bir hissəsini də tələbələrin sosial müdafiəsinin daha da gücləndirilməsi təşkil edib. Hər il yüksək nəticələrlə ali məktəblərə qəbul olunan tələbələrə Prezident təqaüdünün, qəbul göstəriciləri yuxarı olan gələcəyin müəllimlərinə təqaüdlərin verilməsi, gənclər üçün Prezident mükafatının təsis edilməsi onları daha yaxşı təhsil almağa stimullaşdırmaq baxımından mühüm əhəmiyyət kəsb edir.

Dövlət başçısının müvafiq Fərman və sərəncamları əsasında 600-ə yaxın doktorantın və 110 mindən artıq tələbənin təqaüdləri orta hesabla 20 faiz artırılması nəzərdə tutulub ki, bunun icrası üçün 25 milyon əlavə vəsait ayrılacaq.

"Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Sərəncama əsasən, ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayının 2019-cu il martın 1-dən 16 000 vahid artırılması və təqaüd alan tələbələrin sayının tələbələrin ümumi sayına olan nisbətinin hazırkı 31 faizdən 2019-2020-ci tədris ilində 45 faizə, 2020-2021-ci tədris ilindən başlayaraq isə 50 faizdən az olmayan səviyyəyə çatdırılması nəzərdə tutulur.

Sərəncamla ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı 2019-cu il martın 1-dən 30 faiz artacaq. Bu da öz növbəsində ölkədə yüksək ixtisaslı, peşəkar kadrların hazırlanmasına dövlət qayğısını artıracaq və müvəffəqiyyət göstəricilərini nümayiş etdirmiş tələbələrə təqaüd almaları üçün əlavə imkanlar yaradacaq.

Xüsusilə də qanunvericiliyə edilmiş dəyişikliyə əsasən, 2016-cı ildən təqaüdlərin ödənilməsinin yalnız dövlət sifarişi əsasında təhsil alan tələbələrə deyil, eyni zamanda, ümumi orta müvəffəqiyyət göstəricisi və fənlər üzrə akademik nailiyyətləri nəzərə alınmaqla ödənişli əsaslarla təhsil alan tələbələrə də şamil edilməsi artımın əhəmiyyətinə bir daha aydınlıq gətirir. Bu isə tələbələr arasında olan rəqabət mühitini daha da gücləndirəcək, akademik göstəricilərə görə tələbələrin biliklərə yiyələnmə vəziyyətinə bir az da aydınlıq gətirəcək. Nəticədə tələbələr arasında akademik göstəricini artırmaq və ya ən azından onu qorumaq uğrunda mübarizə daha da aktuallaşdıracaq.

Söhbət həm də ondan gedir ki, təqaüdlərin artımı tələbələrin ailə büdcəsinə dəstək olmaqla onların xərclərinin azaldılmasına imkan verəcək. Ümumilikdə götürdükdə, son illərdə magistrlərə hərbi xidmətdən möhlət hüququnun verilməsi, alimlərin mənzil-məişət problemlərinin həlli istiqamətində addımlar atılması dövlətin təhsilə, elmə qayğısının sistemli xarakter daşımasından xəbər verməklə bu sahənin inkişafına xidmət edir. Təqaüdlərin artırılması isə bu istiqamətdə növbəti stimulverici addım olmaqla təhsilin keyfiyyətinin yüksəldilməsinə bir növ investisiya xarakteri daşıyır.

**Ceyhun Piriyev,**
***"İki sahil"***

## Yerli icra hakimiyyəti orqanlarında ilk:

# Xidmətlərin asanlaşdırılması üçün vahid mərkəz yaradılıb



Yerli icra hakimiyyəti orqanlarında ilk dəfə olaraq Gədəbəy Rayon İcra Hakimiyyəti (RİH) tərəfindən göstərilən xidmətlərin asanlaşdırılması üçün vahid mərkəz yaradılıb. Mərkəz 39 sahə üzrə xidmət edir.

Qurumda RİH başçısı aparatında fəaliyyət göstərən hər şöbədən bir nəfər məsul işçi olmaqla cəmi 7 nəfər daim orada xidmət göstərir. Quraşdırılmış böyük monitorda xidmət sahələrinin adları, həmin sahələrə məsul şöbələr, tələb olunan sənədlərin nümunəsi, sənədin icra müddəti, qanunvericilik bazası yerləşdirilib. Burada xidmət sahələrinin hər biri telefon və kompyuter dəsti ilə təchiz edilərək internetə çıxışı təmin edilib. Xidmət göstərən məsul işçilər quraşdırılmış böyük monitorda vətəndaşa izah vermək, sənəd nümunələrini göstərmək imkanına malikdirlər. Mərkəzdə vətəndaşın problemlərinin operativ həlli məqsədi ilə "Qaynar xətt" yaradılıb. Bundan əlavə, xidmətin səmərəliliyinin artırılması məqsədilə mərkəzdə könüllülər fəaliyyət göstərir.

Burada məqsəd sənədlərin aşkarlıq şəraitində qəbul edilməsi, vaxt itkisinin, süründürməçiliyin və korrupsiya hallarının qarşısının alınması, vətəndaşın eyni vaxtda vahid məkanda Rayon İcra Hakimiyyətinin bütün struktur bölmələri ilə ünsiyyətdə olmasının təmin edilməsi, işgüzar mühit, açıqlıq, həssas münasibət, yerli dövlət hakimiyyəti orqanlarının vətəndaşlar üçün günün istənilən vaxtı açıq olması, RİH-in vətəndaşın etimad ünvanına çevrilməsi, vətəndaş məmnunluğunun yüksəldilməsidir.

## RADİKAL EKSTREMİZM:

# mübariz, yoxsa terrorist



İqtisadi və Sosial İnkişaf Mərkəzi (CESD) PH International təşkilatının dəstəyi ilə "Yerli icmaların imkanlarının artırılması təşəbbüsləri" layihəsi çərçivəsində 12 fevral 2019-cu il tarixində Sumqayıt şəhərində növbəti təlimini keçirib. Gənc fəalların, tələbələrin, Sumqayıt Gənclər Evinin əməkdaşlarının və könüllülərin iştirak etdikləri tədbiri giriş sözü ilə açan CESD-nin sədri Vüqar Bayramov yeni iştirakçılara layihə və onun potensial təsirləri haqqında məlumat verib.

Daha sonra təlimçi Rəşad Həsənov "Radikal ekstremizm: mübariz, yoxsa terrorist" mövzusunda təlimə başlayıb. İlk öncə iştirakçılar terrorist və azadlıq mücahidini fərqləndirən cəhətlər haqqında fikir mübadiləsi apariblar. Rəşad Həsənov terroristlərin hüquq müdafiəçilərindən, yaxud azadlıq mücahidlərindən fərqləndirilməsinin önəmini vurğulayıb və qeyd edib ki, qarşımızdakı insanın düzgün müəyyən edilməsi bizə adekvat preventiv addımlar atmağa imkan verir.

Mövzu ilə əlaqədar qrup işi keçirildikdən sonra iştirakçılara radikal ekstremizmin və terrorizmin insanlarda yaratdığı hisslər və onları doğuran səbəblər haqqında məlumat verilib.

Qeyd edək ki, bu təlim layihə çərçivəsində Sumqayıt şəhərində keçirilən ikinci tədbir olub və növbəti həftələrdə digər təlimlərin keçirilməsi də nəzərdə tutulur.

**Mənsumə Babayeva,** ***"İki sahil"***

# SOCAR-ın məlumatı



Dünən "MPK-460" gəmisi "28 May" NQÇİ-nin 19 saylı dərin dəniz özülündən yük qəbul edərkən 4-cü dərəceli takelajçısı Hüseynov Ağazaman Əlqardaş oğlu gəminin yırğalanması nəticəsində müvazinətini itirərək dənizə düşüb. Suya atılan xilasetmə dairələrini tuta bilməyən A.Hüseynov "Nefteqaz-62" gəmisindən suya endirilmiş qayıq vasitəsilə sudan çıxarılıb.

Gəmidə olan heyət tərəfindən A.Hüseynova ilkin tibbi yardım göstərilməsinə baxmayaraq, onun öldüyü məlum olub. Hadisə ilə bağlı araşdırma aparılır. SOCAR kollektivi Azərbaycan neftçiləri adından mərhumun ailəsinə başsağlığı verir, səbr diləyir.

# 2040-cı ilədək qlobal enerji tələbatı üçdəbir nisbətində artacaq

**Çin və Hindistanda həyat standartlarının yüksəlməsinin də təsiri ilə 2040-cı ilə qədər qlobal enerji tələbatının üçdəbir nisbətində artacağı gözlənilir. Bu barədə BP-nin "Energy Outlook 2019" hesabatında deyilir.**

Hesabata görə, istehlak edilən ümumi enerjinin 75 faizi sənaye və binalarda istifadə ediləcək. Nəqliyyatda istehlak olunan enerjinin payının isə resurslardan daha səmərəli istifadə nəticəsində əhəmiyyətli dərəcədə azalacağı nəzərdə tutulur.

Elektrik enerjisi istehsalının qlobal enerji artımında 75 faiz payı olacaq. 2040-cı ildə enerji tədarükündəki artımın 85 faizi bərpaolunan enerji və təbii qaz ehtiyatları tərəfindən təmin ediləcək.

2040-cı ildə qlobal elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının isə ən böyük olacağı gözlənilir.





# "Siyasi mühacirlər"in xam xəyalları və...

Cavid Əkbərov

Avropada yaşayan və özlərini "siyasi mühacir" adlandıran başıpozuq bir qrup ölkəmizə qarşı söyüş və təhqir dolu iftiralarını təkcə sosial şəbəkələrdə paylaşmaqla kifayətlənmirlər. Onlar siyasətə dəxli olmayan məhbuslarla bağlı hökumətə qarşı çirkin siyasi kampaniyalar da qururlar. Burada məqsəd Azərbaycanı daha çox gözdən salmaq, həmçinin bunların müqabilində beynəlxalq təşkilatlardan, erməni lobbilərinə bağlı qurumlardan daha çox qrant almaqdır. Buna ən son misal isə radikal dindarlar Taleh Bağırzadə və Abbas Hüseynlə bağlı başladılan kampaniyanı göstərmək olar.

Azərbaycana qarşı şər-böhtan kampaniyasının başında duranlardan biri - Orduxan Teymurxan özünün "Facebook" profilində video paylaşaraq deyib ki, guya hər iki şəxs az qala acından ölür. Elə Mehman Hüseynov haqqında da belə iddialar qaldırırdılar. Sonda isə yalanlarının üstü açıldı. Bu da azmış kimi, Orduxan Teymurxan "Facebook" profilində Taleh Bağırzadəni qəhrəman kimi təqdim edir. "Taleh Bağırzadə qəhrəmanımızdır", "Sosial şəbəkələrdə, beynəlxalq təşkilatlarda onun haqqında fəal olaq, daha çox danışaq, mitinqlər təşkil edək" deyən üzdəniraq "blogger" Abbas Hüseynə də "azadlıq" tələb edir.

Maraqlıdır, Taleh Bağırzadənin, onun ətrafına toplaşanların əməllərini nə tez unutdunuz? Bu gün dövlətə, dövlətçiliyə qarşı çıxışlar edən birinin tərəfini saxlayıb onu qəhrəman elan etmək elə Abbas Hüseyn və Taleh Bağırzadə ilə eyni cərgədə olmaq deməkdir. Əslində, radikal dindarlarla dağıdıcı müxalifətin bir-birinin tərəfini belə saxlaması başadüşüləndir. Çünki müsəlman ölkələrini - ərəb dövlətlərini az qala məhvə sürükləyən "Ərəb baharı"nın ölkəmizdə baş verməsi arzusunda olan dağıdıcı müxalifətlə Taleh Bağırzadənin tərəfdarlarını xaos yaratmaq məqsədi birləşdirir.

Nardaran hadisələrinin faciəvi sonluqla nəticələnməsinə səbəb olmuş Taleh Bağırzadə guya aclıq aksiyasına start verib. Əlbəttə ki, bu, bir siyasi gedişdir. Yəni bir müddət əvvəl Mehman Hüseynovla bağlı haray-həşir salıb beynəlxalq təşkilatlara yalan dolu donoslar ötürənlər indi də həmin oyunları iki şəxs üzərində (Taleh Bağırzadə, Abbas Hüseyn) qurmağa çalışırlar. Ötən il seçki ili olduğu üçün fəallaşıb aldığı qrantlar hesabına Avropa küçələrinə düşən, iki cümləni düzgün ifadə edə bilməyən Orduxan Teymurxan ora-bura şəkillər yayanda niyə indi həbsdə olan radikal dindarlar yada düşmürdü? Ümumiyyətlə, əli haqsız yerə qana batan birini necə qəhrəmanlaşdırmaq olar? "Mehman Hüseynov şousu"ndan istifadə etməyə çalışan dağıdıcı müxalifət indi dövriyyəyə yeni oyunçu buraxmaq istəyir. Amma görünən odur ki, Taleh Bağırzadənin adından istifadə edilərək qurulan oyun əvvəlki effekti vermir.

Hər kəsə məlumdur ki, müxalifətin "çörəyi" həbsdə olanların "siyasi məhbus" kimi təqdim edilməsi məsələsindən çıxır. Yəni beynəlxalq təşkilatlara bununla bağlı hesabatlar, siyahılar təqdim edənlər sonrakı mərhələdə onlarla bağlı kampaniyalar təşkil edirlər. Bunun müqabilində isə maliyyə yardımları alırlar. Qısası, nə xaricdə yaşayan söyüşcül dəstə - "iaşə müxalifəti", nə də ənənəvi müxalifət nümayəndələri Taleh Bağırzadə və Abbas Hüseyni cəmiyyətə qəhrəman kimi təqdim edə bilmədilər. Bu, qrant yemək üçün başladılan bir kampaniyadır. Heç şübhəsiz ki, İslamı siyasi alətə çevirmək istəyənlərin müdafiəsinə qalxanlar özlərinin çirkin niyyətləri ilə xalqın gözündən daha da düşəcəklər.

# Jurnalistika cinayət əməllərinin ört-basdır edilməsi meydanı deyil

**Müstəqillik dövründə Azərbaycan mətbuatı xeyli inkişaf edib. Bir sıra uğurlarla yanaşı, ümumilikdə milli mətbuatımız beynəlxalq standartlara uyğunlaşmaq istiqamətində xeyli irəliləyib. Sözsüz ki, bu tərəqqidə dövlətin KİV-ə göstərdiyi qayğı və dəstək xüsusi çəkiyə malikdir. Azərbaycan dövləti milli mətbuatın saxlanmasına və inkişaf etməsinə daim özünün yüksək dəstəyini nümayiş etdirib.**



Lakin təəssüflə qeyd etmək lazımdır ki, uğurlarla yanaşı, mediada bəzən xoşagəlməz tendensiyalar da baş verməmiş deyil. Bu, daha çox mətbuatın adından sui-istifadə edib müxtəlif vasitələrlə, hətta cinayət yolu ilə şəxsi maraqlarını təmin edənlərin fəaliyyəti ilə bağlıdır. Bir qrup insanlar jurnalist adından sui-istifadə edərək ayrı-ayrı şəxsləri şantaj yolu ilə hədələyir, bu yolla qanunsuz maddi gəlir əldə edirlər.

Son illərdə bu istiqamətdə aparılan işlər "reket jurnalist" adlandırılan belə şəxslərin azalmasına, bir qisminin qanunla cəzalandırılmasına səbəb olub. Bu baxımdan Azərbaycan Mətbuat Şurasının gördüyü işləri ayrıca vurğulamaq vacibdir. Həmçinin müxtəlif dövlət qurumlarının araşdırmaları nəticəsində mediada cinayət fəaliyyəti göstərən xeyli sayda insan aşkarlanıb və layiqli cəzasını alıb. Məhz buna görədir ki, indi ölkəmizdə belələrinin sayı nəzərəçarpacaq dərəcədə azalıb.

Ancaq hələ də bu çirkin əməldən əl çəkməyənlər var və onların bəziləri özlərini daha "ustalıqla" media sahəsinə sırımağa çalışırlar. Son vaxtlar "Realliq.info" xəbər portalı yaradaraq ayrı-ayrı vətəndaşları və dövlət məmurlarını şantaj etmək yolu ilə pul əldə edən İkram Rəhimovun "fəaliyyəti" bu baxımdan diqqəti öz üzərinə cəlb edə bilib. İ. Rəhimov özü kimi bir qrup şəxslə yaratdığı sayt şəbəkəsindən istifadə edərək guya Azərbaycan mətbuatında böyük bir "qüvvə" olduğunu isbat etməyə çalışsa da əməlləri onu daha tez ifşa etdi. Beləliklə, məlim oldu ki, İkram Rəhimovun bütün "fəaliyyəti" yalnız cinayət əməlləri ilə "zəngindir".

Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) onun barəsində yaydığı rəsmi məlumatda bildirilir ki, ötən illər ərzində ayrı-ayrı şəxslər barəsində böhtan xarakterli və rüsvayedici məlumatları vaxtaşırı mətbu orqanlarda dərc etdirib dayandırılması müqabilində vətəndaşlardan külli miqdarda pul tələb edilməsi, bu üsulla müxtəlif idarə və təşkilatlarda çalışan şəxslərdən, sahibkarlardan dövri haqq toplanılması barədə daxil olan müraciətlər araşdırılıb, ölkə ərazisində "reket" nəşrlər yaradıb, bu nəşrlərin əməkdaşları adı altında fəaliyyət göstərən şəxslərin silsilə hüquqazidd fəaliyyətlərinin qarşısının alınması üçün qanunla müəyyən olunan tədbirlər görülüb.

Məlumatdan bəlli olur ki, belə "jurnalistlər"in önündə gedənlərdən biri məhz "Realliq.info" informasiya saytının baş redaktoru Rəhimov İkram Rafiq oğludur. Onun haqqında DTX-yə daxil olan məlumatlardan aydın olur ki, İkram Rəhimov ayrı-ayrı şəxslərdən hədə-qorxu yolu ilə pul tələb edib alırmış. Bu şikayətlər araşdırılıb və məhkəmə qərarı əsasında aparılan əməliyyat tədbirləri ilə onun müvafiq əməlləri qeydə alınıb, hədə-qorxu ilə tələb etmə cinayət əməllərində şübhəli şəxs kimi saxlanılaraq barəsində həbs qətimkan tədbiri seçilib.

Xatırladaq ki, İ. Rəhimov haqqında yayılan bu informasiyalar ötən ilin oktyabr-noyabr aylarında da gündəmə gəlmişdi. Həmin dövrdə İkram Rəhimov ona qarşı edilən "təzyiqləri" Mətbuat Şurasının adı ilə bağlamağa çalışmış, Şuranın rəhbərliyində təmsil olunan şəxsləri yersiz ittiham etmişdir. Lakin elə həmin dövrdə Mətbuat Şurasının yaydığı informasiyalardan məlum olur ki, İ. Rəhimovun əməllərindən əziyyət çəkən insanlar artıq neçə illərdir ki, MŞ-nin qapılarını döyməkdədirlər. Şura isə öz növbəsində onu müəyyən profilaktik söhbətlərlə tutduğu əyri yoldan çəkindirməyə çalışır, lakin faydası olmur. Məsələn, məlum olur ki, hələ 2017-ci ilin avqust ayında Neftçala Elektrik Şəbəkəsinin rəhbərliyi adından MŞ-yə şikayət ərizəsi daxil olub. Şikayətdə "Nia.az" və "Realliq.info" xəbər portallarının bu müəssisə barədə qərəzli informasiyalar yaydıqları bildirilirdi. Yaxud xuliqanlıq əməlinə görə həbsdə olan şəxsə jurnalist vəziqəsi verərək onun guya media fəaliyyətinə görə təqib edilməsi fikrini yaratmağa çalışıb. Həm də vəsiqə həmin şəxsə məhz həbsdə olan dövrdə verilib...

Bir sözlə, İkram Rəhimovun "sərgüzəştləri" bitib-tükənmək bilmir. Lakin "su səhəngi suda sınar" atalar sözünün təsdiqi kimi, İkramın da sərgüzəştləri sonda onun yolunu həbsxanaya aparıb çıxardı...

Taleh Turqut,
*"İki sahil"*

# Xocasən-Lökbatan yolunun 11 kilometrlik hissəsi yenidən qurulur

**Dövlət başçısının tapşırıq və sərəncamlarına əsasən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) nəqliyyatın fasiləsiz və təhlükəsiz hərəkətini təmin etmək məqsədi ilə paytaxt Bakının nəqliyyat sistemində mühüm əhəmiyyətə malik yolların yenidən qurulması işləri çərçivəsində Xocəsən-Lökbatan yolunun 11 km-lik hissəsinin bərpası işlərinə start verib. Xocəsən-Lökbatan avtomobil yolu I texniki dərəcəli olmaqla 4 hərəkət zolaqlıdır. Yolun hərəkət hissəsinin eni 16 metr təşkil edir.**



Başlanğıcını respublikanın iki mühüm avtomobil yolu sayılan Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolu ilə Bakı-Şamaxı-Yevlax avtomobil yolunun kəsişdiyi ərazidən götürən Xocəsən-Lökbatan avtomobil yolu Binəqədi və Qaradağ rayonları ərazisindən keçir və paytaxtın mühüm nəqliyyat arteriyası hesab olunur.

Həmin yol uzun illər istismar olunduğundan, yolun hərəkət hissəsində çökmələr, sürüşmə xarakterli deformasiyalar əmələ gəldiyindən əsaslı təmirə ehtiyac var idi. Yolun belə vəziyyətdə olması hərəkətdə müəyyən problemlərə səbəb olurdu. Məhz bütün bunlar nəzərə alınaraq hazırda yol boyu təmir-tikinti işləri aparılır.

AAYDA-nın İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Anar Nəcəfli bildirib ki, Xocəsən-Lökbatan avtomobil yoluna iri və xırda dənəli olmaqla yeni asfalt-beton örtüyü döşənəcək, çiyin hissələr optimal qum-çınqıl qarışığı verilməklə bərkidiləcək: "Ümumilikdə isə təmir-tikinti işləri çərçivəsində yol boyu 180 min kv.m-dən çox sahədə tam yeni və müasir yol infrastrukturu yaradılır."

Bundan başqa, yol boyu vətəndaşların rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədi ilə yeni piyada səkiləri inşa ediləcək, mövcud səkilər isə bərpa olunaraq asfaltlanacaq, kənarlarına 3 min poqonometr yeni səki daşı düzüləcək. Avtonəqliyyat vasitələrinin normal hərəkətini təmin etmək məqsədi ilə isə yol boyu yolcizgi və yolgöstərici xətlər, piyada zolaqları çəkiləcək, zəruri olan yerlərdə yol nişanları və məlumatverici lövhələr quraşdırılacaq.

Agentlik rəhbərliyinin nəzarəti altında və tərtib olunmuş qrafikə uyğun kompleks şəkildə görülən bu işlər nəqliyyatın rahat və təhlükəsiz hərəkəti üçün hesablanıb.

Orxan Vahidoğlu,
*"İki sahil"*

# Dəhnəxəlil kəndində görüş



Yeni Azərbaycan Partiyası (YAP) Ağdaş rayon təşkilatının sədri, Milli Məclisin deputatı Cavid Osmanov Ağdaş rayonunda görüşlərini davam etdirir. Növbəti görüş rayonun Dəhnəxəlil kəndinin sakinləri ilə olub.

Görüşdə Cavid Osmanov son 15 il ərzində ölkədə görülən işlərdən, əldə olunan uğurlardan danışıb. Azərbaycanda həyata keçirilən uğurlu siyasətdən söhbət açan Milli Məclisin deputatı bildirib ki, bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən, heç bir ölkədən asılı deyil: "İqtisadi müstəqillik bizə imkan verir ki, ölkəmiz cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə müstəqil siyasət apararaq Azərbaycan xalqının maraqlarını hər zaman müdafiə etsin. Keçən il iqtisadi inkişaf baxımından respublikamız üçün uğurlu bir il olub. Ölkəmizdə beynəlxalq layihələrlə yanaşı, ölkə daxilində həyata keçirilən sosial, aqrar və sənaye layihələri də uğurla icra edilib." Cavid Osmanov Ağdaş rayonunda həyata keçirilən abadlıq-quruculuq işlərinə diqqət çəkib. Milli Məclisin deputatı bütün bunların cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin nəticəsinin olmasını görüş iştirakçılarının diqqətinə çatdırıb. Ağdaş rayonunda aqrar sahənin son illər daha da canlandığını və insanların əkin-biçin işlərinə marağının artmasını, eləcə də dövlətin kənd adamlarına, fermerlərə verdiyi güzəştləri də xüsusilə qeyd edib.

C.Osmanov görüşdə, həmçinin qeyd edib ki, müstəqil Azərbaycanın uğurlu inkişafını gözü götürməyən antiazərbaycan dairələr ölkəmizə qarşı qarayaxma kampaniyaları aparmağa çalışırlar: "Onlar bu çirkin işlərdə radikal müxalifət nümayəndələri və anti-milli mövqe tutmuş şəxslərdən bir alət kimi istifadə edirlər. Həmin şəxslər sosial şəbəkələrdə dövlət, xalq ümummilli mənafelərin əleyhinə çağırışlar edir, insanlarda çaşqınlıq yaratmağa çalışırlar."

Görüşdə çıxış edən kənd sakinləri Cəmaləddin Nəbiyev, İzafə Əliyarova, Məhbubə Əzizova və Əlican Mahmudov bildiriblər ki, Azərbaycan tarixində heç vaxt olmayan bir inkişaf dövrünü yaşayır və bütün bunlar cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilir. Sakinlər sabitlik, əmin-amanlıq şəraitində yaşadıqları üçün cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

✍ **Orxan Vahidoğlu, *"İki sahil"***

Ceyhun Bayramov:

# Təqaüd sisteminin təkmilləşdirilməsi Prezidentin təhsilə qayğısının bariz nümunəsidir

Təhsil naziri Ceyhun Bayramov Prezident İlham Əliyevin ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı imzaladığı Fərman və sərəncamlara münasibət bildirib.



Trend-in məlumatına görə, nazir qeyd edib ki, son illərdə ali təhsilin keyfiyyətinin yüksəldilməsi və bu sahənin təkmilləşdirilməsi istiqamətində ciddi islahatlar aparılıb: "Yeni inkişaf trendləri əsas götürülməklə universitetlərin kadr potensialı və maddi-texniki bazası gücləndirilib, ali təhsilin əlçatanlığı istiqamətində mühüm addımlar atılıb".

C.Bayramov bildirib ki, hər il yüksək nəticələrlə ali məktəblərə qəbul olunan tələbələrə Prezident təqaüdünün, qəbul göstəriciləri yuxarı olan gələcəyin müəllimlərinə təqaüdlərin verilməsi, gənclər üçün Prezident mükafatının təsis edilməsi onların daha yaxşı təhsil ala bilməsi, təhsilin əlçatanlığının təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Nazir təqaüd sisteminin təkmilləşdirilməsinin ölkə Prezidentinin təhsilə qayğısının bariz nümunəsi olduğunu, ali məktəblərdə təhsilin keyfiyyətinin yüksəldilməsinə, tələbələrin sosial müdafiəsinin daha da güclənmdirilməsinə xidmət etdiyini diqqətə çatdırıb.

Mətbuat konfransında məlumat verilib ki, ölkə Prezidentinin "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" sərəncamı və "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləğinin artırılması haqqında" fərmanı ilə dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğləri artırılıb. Bununla da 600-ə yaxın doktorantın və 110 mindən artıq tələbənin təqaüdləri orta hesabla 20 faiz artacaq.

"Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" sərəncama əsasən, ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayının 2019-cu il martın 1-dən 16 000 vahid artırılması və təqaüd alan tələbələrin sayının tələbələrin ümumi sayına olan nisbətinin hazırkı 31 faizdən 2019-2020-ci tədris ilində 45 faizə, 2020-2021-ci tədris ilindən başlayaraq isə 50 faizdən az olmayan səviyyəyə çatdırılması nəzərdə tutulur. Sərəncamla ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı 2019-cu il martın 1-dən 30 faiz artacaq. Bu da öz növbəsində ölkədə yüksək ixtisaslı, peşəkar kadrların hazırlanmasına dövlət qayğısını artıracaq və müvəffəqiyyət göstəriciləri nümayiş etdirmiş tələbələrə təqaüd almaları üçün əlavə imkanlar yaradacaq. 2016-cı ildə qanunvericiliyə edilmiş dəyişikliyə əsasən, təqaüdlərin ödənilməsi yalnız dövlət sifarişi əsasında təhsil alan tələbələrə deyil, eyni zamanda ümumi orta müvəffəqiyyət göstəricisi və fənlər üzrə akademik nailiyyətləri nəzərə alınmaqla ödənişli əsaslarla təhsil alan tələbələrə də şamil edilib.

# Kartofçuluq: ixrac artıb, idxal azalıb, bəs qiymət?



"2018-ci ildə Azərbaycandan 29 milyon 628 min dollar məbləğində 66 min 563 ton kartof ixrac edilib. Bununla da 2017-ci illə müqayisədə kartof ixracı miqdar ifadəsində 15,5 faiz , məbləğ ifadəsində 14,7 faiz artıb. Bu barədə "İnterfaks-Azərbaycan" informasiya agentliyi məlumat yayıb.

İxracın əsas həcmi Rusiyanın payına düşüb. Xüsusilə 2018-ci il ərzində Rusiyaya 28 milyon 864,37 min ABŞ dolları (artım 12,4 faiz) dəyərində 64 min 425 ton (artım 12,8 faiz) kartof ixrac olunub. Lakin bununla belə, ötən il Azərbaycana 22 milyon 99 min dollar (azalma 17,9 faiz) məbləğində 106 min 240 ton kartof (2017-ci illə müqayisədə azalma 22,23 faiz) idxal edilib.

Azərbaycana əsas kartof tədarükçüləri İran, Gürcüstan, Türkiyə və Rusiya olub. Ötən il İrandan 10 milyon 303 min dollar məbləğində kartof tədarükünün həcmi 54 min 880 ton, Gürcüstandan 5 milyon 514 min dollar məbləğində kartof tədarükünün həcmi 25 min ton təşkil edib. Eyni zamanda, Türkiyədən 2 milyon 644 min dollar məbləğində 10 min 574 ton kartof gətirilib. Rusiyadan isə 2 milyon 377 min dollar məbləğində 10 min 213 min ton kartof idxal edilib. Rəqəmlərdən də göründüyü kimi, ixrac edilən kartofun hər tonunun orta qiyməti 445,11 ABŞ dollarından çox, yəni kilosu 76 qəpiyə bərabər olub.

İdxala gəldikdə isə bir ton kartofun orta qiyməti 208 ABŞ dolları, yəni kiloqramı təqribən 35 qəpikdir. Ayrı-ayrı ölkələrdən idxal üzrə qiymətlər isə müxtəlifdir. Məsələn, Türkiyədən idxal edilən kartofun hər kiloqramı 42 qəpiyə, İrandan 32 qəpiyə, Gürcüstandan 37 qəpiyə, Rusiyadan isə 40 qəpiyə başa gəlib.

Əslində bu ölkələrin demək olar ki, hər birinin milli valyutasının ötən il ərzində dəyər itirməsi Azərbaycana kartof idxalının artmasına şərait yaratmasına baxmayaraq, yerli istehsalın əvvəlki illərlə müqayisədə yüksək olması, eyni zamanda, bundan irəli gələrək Nazirlər Kabineti tərəfindən ölkəyə idxal olunan kartof üçün tarif dərəcəsini müəyyən müddətə (5 sentyabr-31 oktyabr) iki dəfə artırılması idxalın azalmasını şərtləndirib. Bundan əlavə, ötən il bəzi hallarda İran və Gürcüstandan gətirilən kartofda zərərverici orqanizmlərin aşkar olunması faktları da idxalın azalmasına səbəb olan amillərdən hesab edilə bilər.

Ancaq belə görünür ki, aşağı qiymətə idxal edilən kartof yerli məhsulun xarici bazarlara çıxmasına bir növ stimul verib. Belə ki, kartofçuluğun geniş yayıldığı təkcə Cəlilabad rayonunda bu məhsul üzrə istehsalın 80 faizi xarici ölkələrə ixrac edilib.

Eyni zamanda, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin 2018-ci illərdəki aylıq ixrac icmallarından aydın olur ki, "Azexport" portal üzrə ən çox sifarişin edildiyi məhsullardan biri də kartofdur. Bundan başqa, hazırda Dövlət Aqrar Ticarət Şirkəti də yerli fermerlərə kartof tədarükü ilə bağlı müraciət edib. Hazırda bazarlarda "ikinci çörəyin" pərakəndə satış qiyməti əsasən 60-90 qəpik arasında dəyişir. Müşahidələr onu deməyə əsas verir ki, idxal qiyməti azı iki dəfə aşağı olmasına baxmayaraq xarici kartof yerli məhsul üzərində ciddi qiymət təzyiqi yarada bilmir.

✍ **Ceyhun Piriyev, *"İki sahil"***

*Hikmət Babaoğlu:*

# Tələbələrin təqaüdlərinin artırılması Azərbaycan elminin inkişafında yeni üfüqlər açacaq

**Prezident İlham Əliyevin Azərbaycanın ali təhsil və orta ixtisas təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində əyani təhsil alan tələbələrə təqaüdlərin verilməsi ilə bağlı sərəncamı Azərbaycan gəncliyinə qayğının növbəti təzahürü kimi qiymətləndirilməlidir.**



**Bunu Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib.**

H.Babaoğlu bildirib ki, bu, ilk növbədə tələbələrin və elmlə məşğul olmaq istəyən gənclərin sosial vəziyyətinin yaxşılaşdırılması kimi başa düşülür və kifayət qədər düzgün məntiqə əsaslanır: "Ancaq məsələnin mahiyyəti şübhəsiz ki, yalnız bununla məhdudlaşmır. Hazırda dünya yeni, 4-cü sənaye inqilabı ərəfəsindədir və xalqların intellektual müstəvidə mübarizəsi keyfiyyətcə yeni və daha amansız bir mərhələyə qədəm qoyur. Gələcəkdə dünyada söz sahibinə çevriləcək xalqlar da elə bu mübarizənin qalibi olan xalqlar olacaq. Ona görə də bu mühüm tarixi prosesdə geridə qalmamaq üçün Azərbaycan gəncliyi öz intellektual potensialını daima səfərbər etməli, milli inkişafımızın gələcəyini təmin etməlidir. Bu mənada təqaüdlərin artırılması ölkəmizdə elmin inkişafını motivasiya etməklə Azərbaycan elminin inkişafında yeni üfüqlər açacaq".

Deputat qeyd edib ki, bu prosesdə davamlı və fasiləsiz təhsil mühüm əhəmiyyət kəsb edir: "Bir müddət əvvəl magistrlərə hərbi xidmətdən möhlət hüququ verildi, daha sonra alimlərin mənzil-məişət problemlərinin həlli istiqamətində addımlar atıldı, təhsilin bütün pillələrində yeni metodologiyaya əsaslanan islahatlara start verildi və nəhayət, təqaüdlərin artırılması ilə bağlı mühüm qərar qəbul edildi. Göründüyü kimi, bu addımlar bir-birini tamamlayan və bu sahədə ardıcıllığı təmin edən kompleks xarakterli addımlardır və hədəf Azərbaycanda elmin inkişafını təmin etməkdir. Ümid edirik ki, qəbul edilən bu strateji qərarlar elm sahəsində inkişafı təmin etməklə intellektual əmək sahəsində məhsuldarlığın artmasına da gətirib çıxaracaq".

# SOCAR-ın TENDERLƏRİ

SOCAR "Azərikimya" İB

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azərikimya" İstehsalat Birliyi

**"Etilen-polietilen" zavodunu fasiləsiz iş rejimini təmin etmək məqsədi ilə hazır xammal bunkerlərində dənəvər və neft məhsullarının səviyyəsinin ölçülməsi üçün radar tipli səviyyə ölçənlərin satınalınmasına dair açıq müsabiqə (31007-19) elan edir.**

***Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
- Müsabiqədə iştirak haqqında müraciət;
- İştirak haqqının ödənilməsi barədə bank sənədi;
- Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən gec 11.03.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
- Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 18.03.2019-cu il, Bakı vaxtı ilə saat 14:30-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
- Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
- İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
- İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
- Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər ƏDV daxil 336,30 AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını aşağıda qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın 1-ci qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər

Hesab nömrəsi: Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120, VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti, Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881, SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin şərtlər toplusunda qeyd olunmuş təchizat qrafikinə uyğun yerinə yetirilməsi tələb olunur.

***Satınalan təşkilatın ünvanı:***
AZ5000, Səməd Vurğun küçəsi 86, Sumqayıt şəhəri, Azərbaycan Respublikası
**Əlaqələndirici şəxs:**
Rafael İmanov
Satınalmalar və təchizat şöbəsinin böyük eksperti
Telefon nömrəsi: +994 12 521 25 46
+994 12 521 00 00 dax.31121
Elektron ünvan: rafael.imanov@socar.az

***Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 18.03.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 15:00-da Satınalan təşkilatın elanda göstərilmiş ünvanında baş tutacaqdır.

***Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azərikimya" İB-nin Satınalmalar qrupu**

SOCAR "Azərikimya" İB

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azərikimya" İstehsalat Birliyi

**"Etilen-polietilen" zavodunun "Etilen" istehsalatının 3 nömrəli "Qazayırma" sahəsində hidrogenin saflaşdırılması qurğusu üçün hidrogen kompressorunun satınalınmasına dair açıq müsabiqə (31008-19) elan edir.**

***Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
- Müsabiqədə iştirak haqqında müraciət;
- İştirak haqqının ödənilməsi barədə bank sənədi;
- Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən gec 08.03.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
- Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 15.03.2019-cu il, Bakı vaxtı ilə saat 14:30-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
- Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
- İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
- İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
- Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər ƏDV daxil 336,30 AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını aşağıda qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın 1-ci qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər

Hesab nömrəsi: Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120, VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti, Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881, SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin şərtlər toplusunda qeyd olunmuş təchizat qrafikinə uyğun yerinə yetirilməsi tələb olunur.

***Satınalan təşkilatın ünvanı:***
AZ5000, Səməd Vurğun küçəsi 86, Sumqayıt şəhəri, Azərbaycan Respublikası
**Əlaqələndirici şəxs:**
Rafael İmanov
Satınalmalar və təchizat şöbəsinin böyük eksperti
Telefon nömrəsi: +994 12 521 25 46
+994 12 521 00 00 dax.31121
Elektron ünvan: rafael.imanov@socar.az

***Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 15.03.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 15:00-da Satınalan təşkilatın elanda göstərilmiş ünvanında baş tutacaqdır.

***Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azərikimya" İB-nin Satınalmalar qrupu**

# Sosial şəbəkələrdə insanları mənəvi terrora məruz qoymaq yolverilməzdir

## Milli Məclisin deputatı Eldəniz Səlimovun www.yap.org.az saytına müsahibəsi



*- Eldəniz müəllim, bu gün Azərbaycan dünyanın ən dinamik inkişaf edən dövlətlərindən biridir. Ölkəmizin keçdiyi inkişaf yolu haqqında nə deyə bilərsiniz?*

- Prezident İlham Əliyevin uzaqgörən siyasəti, prinsipiallığı və beynəlxalq aləmdə böyük nüfuzu sayəsində Azərbaycan dünyanın siyasi və iqtisadi məkanında mövqeyini gündən-günə gücləndirir. Azərbaycanın təşəbbüskarı olduğu transmilli layihələr hazırda Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə Xəzər dənizinin enerji resursları region ölkələrinə və Avropaya nəql edilir. Son illərdə reallaşdırılan ən mühüm layihələrdən olan, Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən, Prezident İlham Əliyevin "XXI əsrin layihəsi" adlandırdığı "Cənub Qaz Dəhlizi" isə enerji əməkdaşlığımızı genişləndirərək Azərbaycanı Avropanın böyük təbii qaz təchizatçılarından birinə çevirəcəkdir.

Həmçinin "Dəmir İpək Yolu" adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolu quru xətlə birbaşa Avropaya çıxış imkanı yaradır. Eyni zamanda, 2018-ci ilin, may və iyul aylarında "Cənub Qaz Dəhlizi" və TANAP layihələrinin təntənəli açılış mərasimləri keçirildi. Qardaş Türkiyə ilə dostluğun, qardaşlığın, müttəfiqliyin daha bir nümunəsi kimi, ötən ilin payızında "Star" neft emal zavodunun tarixi açılış mərasimi düzənləndi ki, bunlar da nəticə etibarilə Azərbaycanın regionun və bütövlükdə dünyanın enerji təhlükəsizliyinin təminatında əsas aktorlardan birinə çevrildiyini təsdiqlədi.

Uğurlu siyasət nəticəsində əhalinin sosial rifahı da əhəmiyyətli dərəcədə yüksəlib. Dövlət başçısının bu istiqamətdə verdiyi qərarlar xalqımız tərəfindən çox yüksək qiymətləndirilir.

*-2004-cü ildən icrasına start verilən regionların sosial-iqtisadi inkişafı ilə bağlı 3 Dövlət Proqramı uğurla icra edildi. Artıq dördüncü Dövlət Proqramı da qəbul olunub. Bir millət vəkili olaraq, sözügedən Dövlət proqramlarının icrasını necə dəyərləndirərdiniz?*

-Bu dövr ərzində Azərbaycan regionları başdan-başa gözəlləşdi, simasını dəyişdi, inkişaf etdi. Məhz bu inkişaf nəticəsində Azərbaycanın regionları bu gün dünyanın turizm məkanlarına çevrilməkdədir. Hər il minlərlə, onminlərlə xarici turist Azərbaycanın bölgələrinə, müasir və beynəlxalq standartlara cavab verən istirahət, turizm məkanlarına axın etməkdədirlər. Ümumiyyətlə, 2004-cü ildən etibarən Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları bütövlükdə ölkənin iqtisadi potensialının artırılmasında və əhalinin maddi rifah halının yaxşılaşmasında mühüm rol oynadı. Keçən 15 il ərzində 3 Dövlət Proqramının icrası nəticəsində Azərbaycan iqtisadiyyatı 3.3 dəfə artaraq dünya miqyasında rekord göstəriciyə imza artdı. İxracın 4.7 dəfə, valyuta ehtiyatlarımızın isə 24 dəfə artması və paralel olaraq iqtisadiyyata 250 milyard dollar investisiya qoyulması nəticəsində Azərbaycan güclü və regional iqtisadiyyat qurmağa nail oldu.

Ölkənin dayanıqlı və inklüziv inkişafına nail olmaq məqsədilə Prezident İlham Əliyev tərəfindən aparılan geniş islahatlar paketi regionların inkişafına da mühüm təsir edir. Yeni 4-cü Dövlət Proqramı da regionların sosial-iqtisadi inkişafını sürətləndirməklə yanaşı, bütövlükdə Azərbaycan iqtisadiyyatının daha sürətli inkişafının təmin edilməsi və əhalinin rifah halının daha da yaxşılaşması yönümündə hazırlanmış mühüm sənəddir. Dövlət başçısının da dediyi kimi, ilkin hesablamalara görə, regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının icrası üçün ən azı 17 milyard manatdan çox vəsait nəzərdə tutulur. Bir sözlə, dövlət başçısının qeyd etdiyi kimi, bundan sonra da ölkəmiz yalnız inkişaf, tərəqqi və qələbələr yolu ilə gedəcək.

*- Ölkəmizin uğurlu inkişafından danışdınız. Amma bəzi dairələr Azərbaycan haqqında mənfi rəy formalaşdırmağa çalışırlar. Buna münasibətiniz necədir?*

-Bu, çox təəssüf doğurur. Yaxşı olardı ki, ölkəmizdə görülən bu möhtəşəm işləri anti-Azərbaycan dairələrin əlində alətə çevrilən, müstəqil inkişafımıza qarşı həmin dairələr tərəfindən təzyiq, təsir mexanizmi kimi istifadə edilən bəzi "sapı özümüzdən olan baltalar" da görsünlər, duysunlar, anlasınlar. Bilsinlər ki, heç kim, heç bir qüvvə artıq Azərbaycanla zor, təzyiq, təhdid, diktə dilində danışa bilməz. Bu yöndə cəhdlər yersiz və əbəsdir. Atdıqları bumeranq kimi yalnız özlərinə dəyəcək, özlərini əzib keçəcək. Atalar məsələində deyildiyi kimi, yel qayadan heç nə apara bilməz və bilməyəcək. Ona görə yaxşı olardı ki, onlar da səhvlərini, yanlışlarını nəhayət, anlasınlar, oyuncaq kimi istifadə edilməkdən qurtulsunlar və düz yola gəlsinlər. Yoxsa, onlar üçün sonra çox gec olacaq. Sosial şəbəkələr vasitəsilə şər, böhtan kampaniyası aparmaq, insanları təhqir etmək, mənəvi terrora məruz qoymaq yolverilməzdir. Bütün bunların qarşısı qanun çərçivəsində alınmalıdır. Demokratiya, söz azadlığı o demək deyil ki, hər kəs istənilən zaman başqalarını təhqir edə bilər. Bu reallıq dünya ölkələrində də narahatlıq doğurur və bunun qarşısını almaq üçün lazımi addımlar atılır. Azərbaycanda da bu yöndə tədbirlər görülməlidir.

# Professor Aygün Əttar: Azərbaycanın uğurlarının əsasını xalq-hakimiyyət birliyi təşkil edir



Prezident İlham Əliyevin Real televiziyasına müsahibəsi zamanı verdiyi mesajlar Azərbaycanın öz inkişaf və tərəqqi yolunda qətiyyətli olduğunu bir daha dünya ictimaiyyətinə nümayiş etdirdi. Azərbaycanlı olaraq fəxr edirik ki, bizim dövlətimiz bundan sonra da kənar təsirlərlə yox, məhz öz gücü və iradəsi ilə idarə olunacaq.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Türkiyədə yaşayan Azərbaycan əsilli professor Aygün Əttar deyib.

Azərbaycanın bütün sahələr üzrə inkişaf etdiyini diqqətə çatdıran professor deyib: "Azərbaycan coğrafi baxımdan həssas bir bölgədə yerləşir. Tarixin bütün dövrlərində böyük qüvvələr Qafqazdakı maraqlarını təmin etmək üçün Azərbaycana xüsusi prizmadan yanaşıblar. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdandan sonra böyük müdrikliklə tarazlaşdırılmış siyasi kurs müəyyən etdi. Prezident İlham Əliyev isə bu siyasəti daha modern bir formada həyata keçirməyə başladı. Dövlət başçısının Real televiziyasına müsahibəsində bir daha əmin olduq ki, Azərbaycan öz müstəqilliyini qorumaq üçün böyük gücə malikdir. Azərbaycanın uğurlarının əsasını xalq-hakimiyyət birliyi, o cümlədən ölkə rəhbərinin vətəndaşlarla səmimi münasibəti təşkil edir".

# "Mühəndislər üçün biznes təhsili"

**Bakı Ali Neft Məktəbi (BANM) və BP şirkətinin birgə əməkdaşlığı çərçivəsində ərsəyə gələn "Mühəndislər üçün biznes təhsili" layihəsinin yeni qrupları üçün açılış mərasimi keçirilib.**



Mərasimdə çıxış edən ali məktəbin rektoru Elmar Qasımov bildirib ki, "Mühəndislər üçün biznes təhsili" layihəsinin əsas məqsədi güclü texniki biliklərə malik olan mühəndislərdə biznes təfəkkürünün, menecer bacarıqlarının formalaşmasına nail olmaqdır. Rektor Elmar Qasımov layihədə tədris olunacaq modullardan və onların iştirakçıların gündəlik, həmçinin karyera həyatlarına təsir edəcək müsbət tərəflərindən danışıb.

Layihənin koordinatoru Ləman Hüseynova iştirakçılara BANM haqqında təqdimat edib, daha sonra layihədə iştirak etməyin qaydaları, modullar, təlimçilər və s. haqqında məlumat verib.

Daha sonra "Mühəndislər üçün biznes təhsili" layihəsinin modullarından biri - "Danışıqların aparılması bacarıqları" modulunun təlimçisi, BANM-in proqram meneceri Nərgiz Tarverdiyeva çıxış edərək, proqramın modulları - Təqdimat və kommunikasiya bacarığı, Layihələrin idarə edilməsi, Vaxtın idarə edilməsi və effektivlilik, Liderlik, Risklərin idarə edilməsi, Maliyyənin əsasları: Büdcə və xərclərə nəzarət, İnsan resurslarının idarə edilməsi modullarının mahiyyəti və əsas məqsədi haqqında iştirakçılara məlumat verib.

Daha sonra iştirakçılar xüsusi qruplara bölünüb və BANM-in kampusu ilə yaxından tanış olublar.

Qeyd edək ki, 2 ay müddətində davam edəcək proqramın tədris edilməsi üçün müxtəlif şirkətlərdə çalışan təcrübəli ekspertlər cəlb olunublar. Səkkiz modulu əhatə edən proqramın iştirakçıları xüsusi dizayn edilmiş 16 kitabdan (hər modul üçün oxu və məşğələ kitabları) ibarət dərs vəsaitlərindən istifadə edəcəklər.

Layihədə iştirak etmək üçün BANM, ADNSU, UFAZ, BMU, AzMİU və Xəzər universitetlərindən xüsusi seçim prosesindən keçən 110-dan çox tələbə seçilib.

**Zamin Məmmədov,**
***"İki sahil"***

# Qətərli və livanlı jurnalistlər Mətbuat Şurasında



Ötən gün Azərbaycan Mətbuat Şurasında (MŞ) Qətərdən və Livandan olan bir qrup jurnalistlə görüş keçirilib.

MŞ sədri, Milli Məclisin deputatı Əflatun Amaşov qonaqlara rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətləri barədə məlumat verib. MŞ sədri bildirib ki, Şura beynəlxalq media qurumları ilə əməkdaşlıq məsələlərinə Azərbaycan həqiqətlərinin xaricdə təbliği vasitəsi kimi önəm verir. Bu baxımdan ərəb ölkələrinin, ümumilikdə müsəlman dünyasının media qurumları ilə münasibətlərin saxlanılması olduqca önəmlidir.

MŞ sədrinin müavinləri - Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlunun, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərlinin, İdarə Heyətinin üzvləri - "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyevin, "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlunun iştirak etdikləri görüşdə Azərbaycan mediası ilə dünya mediası arasındakı əməkdaşlığın formaları, Azərbaycan həqiqətlərinin xaricdə təbliği məsələləri, həmçinin söz və ifadə azadlığı müstəvisində nəzərə çarpan meyillər ətrafında geniş müzakirələr aparılıb.

Qeyd edək ki, ərəb ölkələrindən olan bir qrup jurnalist - Joseph Varghese ("Culf Times" qəzetinin repartyoru, Qətər), Smail Tellai, ("Al-Arab" qəzetinin reportyoru, Qətər), Mamdouh Fathy Abdelazim Raswan ("Al-Raya" qəzetinin şöbə müdiri, Qətər), Mohamed Mahmoud Sidi Mohamed ("Peninsula" qəzetinin reportyoru, Qətər), Shawgi Mahadi Mustafa Bakhit ("Lusail" qəzetinin müxbiri, Qətər), Ahmed İbrahim A H Al-Mohannadi ("Al Sharq" qəzetinin müxbiri, Qətər), Walden Susannah Mitchell ("Media Daily Star" qəzeti, Livan), Soulagr Georges ("Cumhuriyyə" qəzeti, Livan), El Zbaidi Michel ("Cadernews" saytı, Livan) fevralın 10-dan ölkəmizdə səfərdədir. Onlar Mətbuat Şurası ilə yanaşı, bir sıra KİV-lərdə görüşlər keçirib, həmçinin ölkəmizin tarixi yerləri ilə tanış olublar.

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Kompleks Qazma İşləri Tresti

**Uzadıcı katuşka və manifold şlanqına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26004-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;

* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);

* Müsabiqə təklifinin təminatı;

* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 07.03.2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır. Göstərilmiş tarixdən gec edilmiş ödəniş və müraciətə baxılmayacaqdır.

Tələb olunan sənədlərin elektron surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 15.03.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Müsabiqə təklifinin təminatı:***

Müsabiqə təklifinin təminatı, bank qarantiyası formasında iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə, 15.03.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Müvafiq təminatı təqdim edilməyən təklif rədd ediləcəkdir.

Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə sorğu verməlidir.

***IV. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu əldə etmək istəyənlər əlaqələndirici şəxsə iştirak haqqının ödənilməsi barədə bank sənədini və müraciət məktubunu (elektron və ya çap) təqdim etməklə əsas şərtlər toplusunu (elektron və ya çap) Azərbaycan, ingilis və ya rus dilində əldə edə bilərlər.

* Qeyd olunmuş sənədlər elanın I paraqrafında göstərilmiş tarixədək iş günü ərazində saat 09:00-dan 17:30-a kimi təqdim və qəbul edilə bilər.

* İştirak haqqı 177 manat (ƏDV ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutadır və Satınalan təşkilatın aşağıdakı bank hesabına ödənilməlidir:

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***V. Təminatlar:***

* Müsabiqə təklifinin təminatı iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə təminat tələb olunur.

* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunacaqdır.

***VI. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***VII. Satınalan təşkilatın ünvanı:***

AZ1033, Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105.
SOCAR, Kompleks Qazma İşləri Tresti

**Əlaqələndirici şəxs:**

Hüseynov Anar.
Maddi-texniki təchizat və marketinq şöbəsi, şöbə rəisinin müavini
Telefon: (+99 412) 521-31-59
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 15.03.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Kompleks Qazma İşləri Tresti

**Avtomatik qazma açarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26009-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;

* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);

* Müsabiqə təklifinin təminatı;

* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 07.03.2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır. Göstərilmiş tarixdən gec edilmiş ödəniş və müraciətə baxılmayacaqdır.

Tələb olunan sənədlərin elektron surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 15.03.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Müsabiqə təklifinin təminatı:***

Müsabiqə təklifinin təminatı, bank qarantiyası formasında iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə, 15.03.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Müvafiq təminatı təqdim edilməyən təklif rədd ediləcəkdir.

Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə sorğu verməlidir.

***IV. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu əldə etmək istəyənlər əlaqələndirici şəxsə iştirak haqqının ödənilməsi barədə bank sənədini və müraciət məktubunu (elektron və ya çap) təqdim etməklə əsas şərtlər toplusunu (elektron və ya çap) Azərbaycan, ingilis və ya rus dilində əldə edə bilərlər.

* Qeyd olunmuş sənədlər elanın I paraqrafında göstərilmiş tarixədək iş günü ərazində saat 09:00-dan 17:30-a kimi təqdim və qəbul edilə bilər.

* İştirak haqqı 236 manat (ƏDV ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutadır və Satınalan təşkilatın aşağıdakı bank hesabına ödənilməlidir:

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***V. Təminatlar:***

* Müsabiqə təklifinin təminatı iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə təminat tələb olunur.

* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunacaqdır.

***VI. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 120 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***VII. Satınalan təşkilatın ünvanı:***

AZ1033, Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105.
SOCAR, Kompleks Qazma İşləri Tresti

**Əlaqələndirici şəxs:**

Hüseynov Anar.
Maddi-texniki təchizat və marketinq şöbəsi, şöbə rəisinin müavini
Telefon: (+99 412) 521-31-59
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 15.03.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**

NEFT TARİXİMİZ...

# Şimali Azərbaycanın işğalı və neftli torpaqların çar xəzinəsinin mülkiyyətinə çevrilməsi (1801-1871-ci illər)

⇨ Əvvəli ötən sayda

Məhz burada, Xəzər dənizinin sahilində Bakının Bibiheybət qəsəbəsində dərin neft quyularının qazılmasına başlandı və bakılıların ilk təşəbbüsündən yalnız bir neçə il sonra Pensilvaniyada (ABŞ) mexaniki üsulla dərin qazmalar başlandı: 1859-cu ildən Vennanoda (Pensilvaniya) böyük neft yatağı açılandan sonra kommersiya xarakterli neft mədəninin qazılmasına başlanılır ("polkovnik" Edvin Dreyk mexaniki burla 75 fut (təqribən 27 m) dərinliyində ilk quyunu qazır, neft alır və bununla Taytusvilldə, Pensilvaniya ştatında neft yatağı açılır).

Belə bir faktı qeyd edək ki, 1870-ci ildə torpaqölçən A.Avilov Bibiheybətin xəritəsini tərtib edərkən orada 25 kəhrizin və 2 quyunun olmasını göstərmişdir.

Abşeronda XIX əsrin 50-ci illərinin birinci yarısında mexaniki üsulla qazılmış digər quyular haqqında da sonralar əldə edilmiş məlumatlar vardır. Məsələn, Zaqafqaziya Xəzinə (Dövlət) Palatasının 15 aprel 1854-cü ildə bir iltizamçıya verdiyi müqaviləyə əlavə edilmiş sənəddə olan siyahıda neft mənbələri sırasında göstərilir: "... Beybət sahəsində maye qara neft verən iyirmi beş kəhriz və iki qazma quyusu var". Bu məlumatlar göstərir ki, 1854-cü il aprelin 15-dək Bibiheybət ərazisində, dəniz sahilində mexaniki üsulla iki quyu qazılmış, onlar 26 və 27 nömrəli quyular kimi qeydə alınmışdır.

Neftçıxarma işinə iltizam sisteminin tətbiqi şəraitində 1850-ci ildə Abşeronda neft quyularının sayı 120 olmuş və 260000 pud neft çıxarılmışdı, lakin sonrakı on ildə quyuların sayı artaraq 218-ə çatmışdır və bununla bağlı artıq yeni işçi qüvvəsi tələb olunurdu. Nəticədə iltizam sistemi ilə istismarda olan quyularda muzdlu əməkdən istifadə etməyə başladılar.

Qeyd etmək lazımdır ki, 1850-ci ildən 1872-ci ilədək (iltizam sisteminin son ili) Bakı rayonunun neft mənbələri yenidən iltizama (icarəyə) verilir və bu işdə yenə ənənəvi olaraq qeyri-azərbaycanlılara üstünlük verilirdi. 1850-1863-cü illərdə iltizamçı Ter-Qukasov, 1863-cü ildən iltizam sisteminin ləğvinəcən isə İ. Mirzəyev olmuşdur və o, neft və duz istehsalına görə ilk dörd ildə xəzinəyə (dövlətə) hər il 162 min rubl və sonrakı illərdə isə 136 min rubl ödəmişdi.

XIX əsrin ortalarından Abşeronda neft sənayesinin sürətli inkişafı və Bakının quberniya şəhəri statusu alması (imperator II Aleksandrın 1860-cı il 6 dekabr tarixli fərmanı ilə Bakı quberniya şəhəri statusu aldı) burada əhalinin çoxalmasına səbəb oldu. Şəhərdə əmək adamları ordusu yaranırdı. Onların əsasını isə - mədəndə çalışan fəhlələr - quyu qazan kənkənlər, quyudan jelonka (ucu ipə bağlanmış, diametri 250 mm və uzunluğu 10 metr olan adi boru və ya silindrik vedrə) ilə neft çıxarıb çənlərə boşaldan dartayıçılar, neft gölməçələrindən və dənizin üzündən əski ilə neft yığan "cındırçılar" və başqaları təşkil edirdilər.

Rusiyada kapitalizmin inkişafı, sənayenin yüksəlişi, nəqliyyatın və şəhər əhalisinin artması ilə əlaqədar, artıq XIX əsrin 60-70-ci illərində işıqlandırma və yağlayıcı materiallar qismində daxili bazarda neft və neft məhsullarına olan tələbat artmağa başladı ki, bu da Bakıda neft hasilatının çoxalmasına birbaşa təsir göstərdi.

1859-cu ildə Rusiyada ilk dəfə təbii qazın Abşeronda, Suraxanıda V.Kokorevin (1817-1859-cu illər) zavodunda neft təqtiri (emalı) ənbiqlərinin (kublarının) qızdırılması, zavodun inzibati və istehsal binalarının işıqlandırılması üçün yanacaq qismində sənaye məqsədilə istifadəsinə başladılar.

1862-ci ildə Abşeronda artıq 334926 pud neft çıxarılmışdı. On il ərzində (1863-1873- cü illər) Abşeronda neft hasilatı 395470 puddan 1 592 000 puda qədər və ya 4 dəfə artmış oldu.

1861-ci ildə Rusiyada təhkimçilik sisteminin ləğvindən sonra 1872-ci ildə manufaktura sənayesinin fabrik-zavod istehsalı mərhələsinə keçidi başa çatdı. XIX əsrin 70-90-cı illərində neft sənayesinin intensiv inkişaf dövrü, bu sahədə fərdi sahibkarlıq dövrü başlandı. Məhz bu dövrdə neft sənayesində texniki çevriliş baş verdi - neftin quyulardan jelonka ilə çıxarılmasında dartaylama üsulu geniş tətbiq olunmağa başlandı. Nəticədə neft istehsalı sürətlə artmağa başladı. Belə ki, 1872-ci ildə Abşeronda 1.400.000 pud (22900 ton) neft hasil edilmişdi.

Bakı neft rayonunda neft hasilatının artımı əsasən işlək kəhriz quyularının və yeni neft quyularının qazılması hesabına gedirdi. 1862-ci ildən 1872-ci ilədək kəhriz quyularının sayı artaraq 220-dən 415-ə çatmışdı. Bundan başqa, yeni quyular daha dərinə qazılırdı ki, bu da öz növbəsində onların məhsuldarlığına təsir edirdi. 1860-cı ilədək quyuların dərinliyi əsasən 10-15 metrə çatırdısa, 1870-ci ildə bu dərinlik artıq 30-35 metr təşkil edirdi.

XIX əsrin ikinci yarısından isə neft sənayesinin inkişafı ilə əlaqədar elmi-tədqiqat işlərinin aparılmasına da maraq artır. Nefti kimyəvi cəhətdən öyrənən tədqiqatçılardan biri məşhur kimyaçı-alim Dmitri İvanoviç Mendeleyev olmuşdur. D.Mendeleyev hələ XIX əsrin 60-ci illərindən, Peterburq Texnoloji İnstitutunun professoru olduqdan və 1863-cü ildə Qafqaza və Abşerona (Bakıya) səfər etdikdən sonra neft mövzusu ilə maraqlanırdı.

1864-cü ildə tanınmış geoloq-alim G.V.Abix (o, mənşəcə alman idi) Qafqazın böyük bir



ərazisini tədqiq etmiş, bu ərazilərin əsas geoloji quruluşunu öyrənmiş, Qafqazda çöküntü süxurlarının stratiqrafiyasının bəzi məsələlərini işləmiş, faydalı qazıntılar olan yataqların təsvirini vermişdir. Sonralar o, Xəzərin Azərbaycan sahillərinin geoloji tədqiqatlarının nəticələrini çap etdirmişdir ("Otçyot po issledovaniyu mestorojdeniy nefti v Zakavkazskom krae i na Tamanskom poluostrove", Tiflis, 1867). G.Abixin bu tədqiqatları sonralar Xəzər şelfinin neftli yataqlarının geoloji quruluşunu öyrənməyin əsasını qoymuşdur.

Yeni sahibkarlar amerikalılardan nümunə götürərək neft hasilatında ilk dəfə yeni qazma üsulunu tətbiq etməyə başladılar. Qafqazda mexaniki üsulla qazmanın tətbiq olunması ilə bağlı cəhdlər bundan əvvəl də mövcud idi. Belə ki, 60-cı illərin ortalarında Kokorev və Qubonin neft hasilatında qazma mərmilərindən istifadə edirdilər, amma hökumət bu üsulun tətbiqinə qadağa qoydu. Buna səbəb Abixin bu məsələ ilə əlaqədar 3 il ondan öncə hökumətin tapşırığı ilə Abşeronda apardığı araşdırmalardan sonra qazma mərmisinin quyuların qazılmasında yararsızlığı barədə çıxardığı nəticə olmuşdu. Bununla akademik H.Abix neft hasilatında dağ süxurlarının qazma üsulu ilə dağıdılmasının qiymətləndirilməsində ciddi səhvə yol verdi.

Rusiyada neft və neft məhsullarına artan tələbat Bakı bölgəsində neft istehsalı üsulunun təkmilləşdirilməsini tələb edirdi. 1863-cü ildə Pirallahı adasında mexaniki üsulla quyu qazmaq üçün göstərilən təşəbbüs uğursuzluqla nəticələnir.

1866-cı ildə Zaqafqaziya Neft Yoldaşlığı (cəmiyyəti) (sonralar Bakı Neft cəmiyyəti) hökumətə öz mədənlərində qazma işlərinə başlamaq haqqında xahişlə müraciət etdi, lakin rədd cavabı aldı. Yalnız 1868-ci ildə neft quyularının yeni üsulla qazılmasına rəsmi icazə verildikdən sonra, 1869-cu ildə Abşeronda, Balaxanıda iltizamçı İ.Mirzəyev (bəzi mənbələrdə Ağarza Mirzəyev) sadə mexaniki üsulla - ağac ştanqlar tətbiq etməklə zərbə yolu ilə (taraz-balansir, bucurqad və əl nasosu tətbiq etməklə) 20 sajen (42 m) dərinlikdə olan ilk quyunu qazdı, lakin nəticə əldə edə bilmədi. Dartaylama sınağı zamanı quyunun 10-15 m dərinliyindən usta Allahyar uğultu səsi eşidir və sonra quyudan təzyiqlə qaz və su vurur. Gözlənilmədən qaz vurması, yeraltı uğultu səsi, quyu üzərində qum və su sütununun qalxması ustanı bunun şeytan əməli olduğuna inandırmışdı. Qazma ustasının təkidi ilə quyunu tez bir anda daş və qumla doldurmuşlar. Bu quyu Abşeron yarımadasında neft sənayesinin inkişafının başlanğıc dövrü oldu.

1871-ci ilin iyulunda Mirzəyev özünün ikinci qrup sahəsində həmin dərinlikdə olan ikinci quyunu qazdırdı və bu quyu gün ərzində əvvəlcə 700 min pud, sonra isə orta hesabla 2 min pud neft verən güclü fontan ilə işləməyə başladı. O gündən başlayaraq 40-50 m dərinliyə malik quyuların mexaniki (zərbəli-ştanq) üsulla aramsız qazılmasına başlandı və yeni quyuların kənkən üsulu ilə qazılması təcrübəsinə, demək olar ki, son qoyuldu. 1872-ci ildə Mirzəyevin Balaxanıda olan 3-cü qrup sahəsində daha bir neft quyusu fəaliyyətə başladı.

1871-ci ildən Abşeron yarımadasında Bakı-Sabunçu-Ramanı yataqlarının sənaye üsulu ilə işlənməsinə başlandı, 1872-ci ildə isə yerin təkinın sənaye işlənməsi geniş tətbiq edilməyə başladı və təkcə 180 desyatin (1desyatin -1,0925 ha) sahədə olan 16 fontan və 158 kəhriz quyusundan 4 milyon pud neft əldə edildi. Ümumiyyətlə,1872-ci ilin 1 fevral tarixinə Abşeronun dövlət neftli torpaqları 48 sahəyə bölünmüşdü (hər biri 10 desyatin olmaqla): Balaxanı sahəsində - 15, Bibiheybətdə - 2, Binəqədidə - 2, qalanları isə Digəh, Xırdalan, Suraxanı və başqa kəndlərin bağ sahələrində idi.

1821-1872-ci illərdə neft hasilatı gah iltizamçılara, gah da dövlət idarəçiliyinə verilirdi. 35 illik iltizam dövründə 16 276 656 pud, 16 illik dövlət idarəçiliyi dövründə isə 5 078 464 pud neft çıxarılmışdı, yəni iltizam dövründə ildə 465 min pud, dövlət (xəzinə) idarəçiliyi dövründə isə ildə 317 min pud neft hasil edilmişdi.

Neft mədənlərində çalışan təhkimçilərin qul əməyi və iltizam sistemi neft işinin inkişafına mane olurdu. Neft quyularını əldə edən iltizamçı neft hasilatı texnikasının təkmilləşdirilməsində maraqlı deyildi, çünki dörd ildən sonra o, başqasının əlinə keçə bilərdi. Bu səbəbdən neft işinin texnikası bəsit səviyyədə qalmışdı. Onu demək kifayətdir ki, Bakı neft rayonunda iltizam sisteminin mövcud olduğu dövrdə bir dənə də olsa mexaniki emalatxana tikilməmişdi. İltizamçı neftə inhisarçı hüququna malik idi. İltizamçıya neftin hasilatında və satışında verilmiş hədsiz imtiyazlar bazarda özbaşınalığa münbit şərait yaradırdı. Artıq 60-cı illərin sonunda iltizam sisteminin ləğv olunmasına tələb duyulurdu, çünki bu tədbir həm neft sənayesinin, həm də iltizam dövründə az gəlir əldə edən dövlət xəzinəsinin maraqlarına cavab verirdi. Hamı üçün aydın idi ki, iltizam sistemi neft sənayesinin inkişafını məhdudlaşdırır.

Azərbaycanda neftçıxarma sənayesinin inkişafında 1864-cü ildə icbari əməyin və 1872-ci ildə iltizam sisteminin təsviyyəsi (ləğvi) mühüm rol oynadı. İcbari əməyin və iltizam sisteminin aradan qaldırılması neftçıxarma sənayesində feodal-asılılıq münasibətlərinin tamamilə ləğv edilməsi və sahənin azad kapitalist inkişaf yoluna keçməsi demək idi. Neft sənayesində iltizam sistemini mülkiyyət münasibətlərində yeni sistem əvəz etdi.

1850-1872-ci illərdə Bakı neft mədənləri yenidən iltizama verildi və yenə də bu neftçıxarma işində əsaslı dəyişikliyə səbəb olmadı. Nəhayət, 1872-ci ildə çar Rusiyasının dairələri alimlərin, mühəndislərin və sənayeçilərin inandırıcı sübutlarını əsas götürərək 1872-ci il fevralın 1-də neft sənayesində iltizam sisteminin ləğv olunması haqqında fərman imzaladı və bununla da Azərbaycan neft sənayesi tarixində yeni mərhələnin əsası qoyuldu.

✍ **Cəbi Bəhramov**
AMEA A.A.Bakıxanov adına
Tarix İnstitutunun
elmi işlər üzrə direktor
müavini, t.ü.f.d., dosent

# “Din, mədəniyyət və cəmiyyət” mövzusunda ilk “Qış məktəbi” layihəsi

**Azərbaycan İlahiyyat İnstitutu (AİI) tələbələrin elmə, təhsilə marağının artırılması və intellektual səviyyələrinin yüksəldilməsi, milli mənəvi dəyərlərimizin təbliği məqsədilə müxtəlif tədbirlər həyata keçirir. Mütəmadi olaraq təşkil olunan belə tədbirlərdən biri də “Din, mədəniyyət və cəmiyyət” mövzusunda təşkil olunan “Qış məktəbi” layihəsidir. Bu məqsədlə ali məktəbin müəllim və tələbələri daxil olmaqla 39 nəfərdən ibarət heyəti Şamaxı rayonunda olub.**

Öncə kollektiv ümummilli lider Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılan abidəsi önünə tər çiçəklər düzüb, əziz xatirəsini ehtiramla yad edib. Müxtəlif istiqamətlər üzrə təlim və seminarlarla “Qış məktəbi”ndə dərslər keçirilib. Azərbaycan xalqının tarixini, dini inanclarını və s. əks etdirən bir sıra yerlərə ekskursiyalar təşkil edilib.

Layihənin ilk günündə tələbələr idarəçi, biznes məsləhətçisi Fəxri Ağayevin “Şəxsi inkişafda mütaliənin rolu”, “Şəxsi inkişaf və karyera” mövzularında mühazirələrini dinləyiblər.

Sonra tələbələr Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi ilə bərpa edilən, yaşı əsrlərlə ölçülən Dəmirçi məscidini ziyarət ediblər.

“Qış məktəbi” layihəsinin ikinci günü də tələbələr üçün yaddaqalan olub. AİI-nin Dillər və ictimai fənlər kafedrasının müdiri İlkin Əlimuradovun təqdimatında “Azərbaycanlı İslam alimləri”, “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi İdarə Heyətinin sədri Fariz Xəlillinin təqdimatında isə “Şirvanın maddi-mədəni irsi” mövzularında seminarlar təşkil olunub.

Sonra tələbələr Mirzə Ələkbər Sabirin ev-muzeyini ziyarət ediblər.

Rayonun Avaxıl kəndində yerləşən Pir Ömər türbəsi də ziyarət olunub. Burada tələbələrə türbə, Pir Ömər Avaxılın kim olduğu haqqında və Sufi məktəblərindən biri olan xəlvətilik barədə geniş məlumat verilib.

Şamaxı Astrofizika Rəsədxanasına ekskursiya zamanı tələbələr astronomik muzey və teleskoplarla yaxından tanış olublar. Onlara Azərbaycan astronomiya elminin inkişafında əhəmiyyətli rol oynayan Şamaxı Astrofizika Rəsədxanasının tarixi barədə ətraflı məlumat verilib.

“Qış məktəbi”nin sonuncu günündə tələbələr Qafqazın ən qədim məscidi olan Şamaxı Cümə Məscidini ziyarət ediblər. Cənubi Qafqazda ən qədim ibadətgah olan Şamaxı Cümə Məscidi 743-cü ildə inşa edilib.

Tələbələrə məscid haqqında məlumat verilərkən bildirilib ki, Heydər Əliyev Fondu tərəfindən dini məbədin bərpası təşəbbüsü irəli sürülüb, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 dekabr 2009-cu il tarixli Sərəncamına əsasən, burada genişhəcmli və əsaslı təmir işlərinə başlanılıb, 17 may 2013-cü il tarixdə isə açılışı olub. Bu qədim abidənin yerləşdiyi ərazidə ikimərtəbəli inzibati və məişət binaları, məscidə gedən körpücük yenidən tikilib, həmçinin konfrans zalları, kitabxana, dəstəmaz və digər otaqlar təmir edilib.

Şamaxı Cümə Məscidində dini icma nümayəndələri ilə görüş zamanı məscidin imamı Mərhəmət Mustafayev Gənclər Günü ilə bağlı tələbələri təbrik edib, onlara ilahiyyat sahəsində biliklərini zənginləşdirməyi tövsiyə edib.

Görüşdə AİI-nin rektoru Ceyhun Məmmədov ölkəmizdə aparılan uğurlu dövlət-din siyasəti sayəsində xalqımızın əsrlərin sınağından çıxan milli adət-ənənələrinin yaşadılması üçün bütün lazımi şəraitin yaradıldığını qeyd edib. C.Məmmədov Ümummilli Liderin siyasi kursunun davamçısı Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycanın dünya ölkələri sırasında öz layiqli yerini tutması, milli-mənəvi dəyərlərimizin qorunmasında, xüsusilə tolerantlığın və multikultural ənənələrin inkişaf etdirilərək dünyaya çatdırılmasında xüsusi xidmətlərini vurğulayıb.

Dini icma nümayəndələri AİI tələbələrinə Şamaxının tarixi, milli-mənəvi ənənələri haqqında ətraflı məlumat veriblər. 2019-cu ilin “Nəsimi İli” və Şamaxının Gənclər Paytaxtı elan olunması haqqında danışan din xadimləri qeyd ediblər ki, ölkə Prezidenti İlham Əliyevin sözə, sənətkara, yaradıcılığa, ədəbiyyata və ümumilikdə, Azərbaycan mədəniyyətinə verdiyi misilsiz dəyər təqdirəlayiqdir.

“Qış məktəbi” çərçivəsində AİI-nin tələbələri Şamaxıda onlara göstərilən yüksək diqqət və qayğıya görə təşəkkürlərini bildiriblər. Onlar Şamaxı rayonuna səfərlə tariximizin, qədim Azərbaycanımız haqqında məlumat topladıqlarını, həmçinin keçmiş nəsillərin əmanət olaraq qoyub getdiyi zəngin tarixi, nadir memarlıq nümunələrini gələcək üçün qorumağa borclu olduqlarını vurğulayıblar.

Sonra “Qış məktəbi” layihəsi çərçivəsində tələbələr üçün sonuncu seminar təşkil olunub. Seminar AİI-nin rektoru Ceyhun Məmmədovun təqdimatında “Azərbaycan multikulturalizmi: reallıqlar və perspektivlər” mövzusunda keçirilib. İnstitut rəhbəri qeyd edib ki, ölkəmiz müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin, konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır.

C.Məmmədov ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi kursun hazırda onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirildiyini qeyd edib.

Qış məktəbi çərçivəsində sonuncu səfər “Yeddi günbəz” türbələr kompleksinə olub.Tələbələr burada XVII-XVIII əsrlərdə Şamaxı xanı Mustafanın ailə üzvləri üçün salınan məzarlığı ziyarət ediblər.

“Qış məktəbi” iştirakçılarının mükafatlandırılması və sertifikatların təqdim olunması mərasimi ilə yekunlaşıb.

**Rəhilə Misirxanlı,**
**Şəms Bağırova,**
*AİI-nin əməkdaşları*

# Narkomaniya ümumbəşəri bəladır



Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı”ndan irəli gələn vəzifələrin icrası ilə bağlı Nərimanov rayonunun Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyası mütəmadi illik iş planları əsasında işini qurur.

Nərimanov rayonu ərazisində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi, narkomanlığın yayılması ilə mübarizə sahəsindəki tədbirlərini ildən-ilə təkmilləşməsi və gücləndirilməsinin nəticəsi olaraq aşkar edilən cinayət faktlarının sayı, qanunsuz dövriyyədən götürülən narkotik vasitələrin, o cümlədən güclü təsirə malik narkotiklərin çəkisi əhəmiyyətli dərəcədə coxalmış, bir sıra qrupların yaxalanması ilə nəticələnən uğurlu əməliyyatların, eyni zamanda, məqsədyönlü profilaktiki və maarifləndirmə tədbirlərinin keçirilməsi təmin edilmişdir.

2018-ci il ərzində Nərimanov Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində 56 cinayət faktı aşkar edilmiş, bunlardan 20-i fakt narkotik vasitələrin satışı ilə bağlı olmuşdur. Keçirilmiş tədbirlər nəticəsində həbs edilmiş cinayətkarlardan 17 kq 006,227 qram çəkidə narkotik vasitə aşkar edilərək qanunsuz dövriyyədən çıxarılmışdır.

Nərimanov rayonunun Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyası rayon Gənclər və idman idarəsi, ümumtəhsil, peşə, orta-ixtisas və ali təhsil müəssisələri ilə birgə “Narkomaniya əsrin bəlasıdır”, “Ağ ölümlə mübarizə”, “Mən sağlamlığı seçirəm”, “Narkomaniya - gələcəksiz həyat”, “Narkotiklərə “yox” deyək!”, “Narkomaniya intihardır”, “Həyata “hə”, narkotiklərə “yox” deyirik”, “Xoşbəxt həyatda narkotiklərə yer yoxdur”, “Sağlam gələcək naminə!”, “Narkotiklərsiz gələcəyə doğru”, “Biz narkotiklərə “yox” deyib həyatı seçirik”, “Azərbaycan gəncləri narkotiklər əleyhinə”, “Sən də QİÇS-ə “yox” de” mövzularında müxtəlif tədbirlər, toplantılar, “dəyirmi masa”lar, idman yarışları, rəsm, inşa yazı müsabiqələri həyata keçirilmişdir. Narkomaniyaya və taksikomaniyaya qarşı keçirilən profilaktik tədbirlərdə “ağ ölüm”ün nə olduğu yeniyetmələrə və gənclərə aşılanmışdır. Dinləyicilərin suallarına səhiyyə və hüquq - mühafizə orqanlarının əməkdaşları tərəfindən ətraflı cavab verilmiş, gələcəyimizi bu bəladan qurtarmağa çağırılmışdır. Müsabiqələrdə iştirak edib qalib gələnlər mükafatlandırılmışdır.

Ali təhsil, orta ixtisas və ümumtəhsil müəssisələrində narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılmasının qarşısının alınması məqsədi ilə gənclər arasında zərərli vərdişlərin profilaktikası sahəsində mühazirələr, seminarlar və digər hüquqi maarifləndirici tədbirlər təşkil olunur.

Dövlət Proqramının 4.4.23-cü bəndinə uyğun olaraq Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi qrupunun təşkilatçılığı ilə Nərimanov Rayon İcra Hakimiyyətində təlim-məşğələ keçirilmişdir.

Nərimanov rayonunun Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyasının üzvləri rayon Polis idarəsinin əməkdaşları ilə birgə rayonun inzibati ərazisində yerləşən orta, orta-ixtisas və ali təhsil müəssisələrində yeniyetmələr və gənclərlə görüşlər keçirir, narkotik vasitələrin insan orqanizmi üçün ziyanı barədə onlar məlumatlandırır və bu barədə onlarla qarşılıqlı diskussiyalar aparırlar.

Bəşəri bəla olan narkomanlığın yayılması və narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədilə rayon Ağsaqqallar Şurasının, Müharibə, Əmək, Silahlı Qüvvələr, Hüquq-Mühafizə Orqanları Veteranlar Şurasının rayon şöbəsi üzvlərinin, Rayon Gənclər və idman İdarəsinin nümayəndələrinin, hüquq-mühafizə işçilərinin orqanları əməkdaşlarının ilə ümumtəhsil müəssisələrində məktəblərin müəllim-valideyn kollektivlərinin birgə iştirakı ilə “Övladlarımızı narkomaniyadan qoruyaq” mövzusunda maarifləndirici toplantılar keçirilmişdir. Tədbirdə uşaqları zərərli vərdişlərdən qorunması yolları barədə söhbət aparılmışdır. Tədbirləri əks etdirən görüntülər məktəblərin internet səhifələrində yerləşdirilmişdir.

Narkomanlıqla bağlı hüquqpozmalara meyilli olan yetkinlik yaşına çatmayanların və gənclərin yaşayış yerləri, işlədikləri və təhsil aldıqları inzibati ərazilər üzrə rayon Polis idarəsinin narkotiklərlə mübarizə bölməsinin əməkdaşları, İctimai təhlükəsizlik şöbəsinin və yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili bölməsinin işçiləri, ali və orta-ixtisas təhsil müəssisələrinin gənclər təşkilatlarının üzvləri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın üzvləri ilə birgə əlaqəli profilaktik tədbirlər həyata keçirirlər. Tədbirlərdə gənclərin asudə vaxtının səmərəli təşkil olunması, şagirdlərin siqaret çəkməsi, dərsdən yayınmasına və pis vərdişlərə yiyələnməsinə qarşı mövzularda çıxışlar edilir, fərdi söhbətlər və fikir mübadiləsi aparılır.

Ümumiyyətlə, 2013-2018-ci illər ərzində Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Rayon Komissiyası tərəfindən Nərimanov rayonu ərazisində fəaliyyət göstərən 23 ümumtəhsil, 3 peşə, 3 orta-ixtisas və 8 ali təhsil müəssisəni əhatə edən 120 tədbir keçirilmişdir. Həmin tədbirlərdə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi qrupunun əməkdaşları iştirak etmişlər.

Rayon rəhbərliyinin, rayon ictimaiyyətinin, hüquq-mühafizə orqanlarının təmsilçilərinin, səhiyyə işçilərinin, fəal gənclərin qatıldıqları tədbirlərdə çıxış edənlər bu cür tədbirlərin maarifləndirici əhəmiyyətindən danışmış, narkomaniya və onun cəmiyyətdə törətdiyi fəsadlar haqqında ətraflı məlumat vermişlər. Bildirilmişdir ki, narkomaniyanın daha geniş insan kütləsini öz təsiri altına almasının qarşısının alınması üçün ölkəmizdə də maarifləndirmə işlərinin aparılmasına böyük ehtiyac var.

Hazırda Nərimanov rayonunda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə tədbirləri davam etdirilir.

**İradə Mahmudova,**
*Nərimanov Rayon İcra Hakimiyyəti başçısının müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyasının sədri*

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**Müxtəlif ölçülü polad vərəqələrə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25037-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 12.03.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 19.03.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 590 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin yerinə yetirilməsi qrafik üzrə tələb olunacaq.
**Bank təminatı:**
İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-dək məbləğindən aşağı olmamalıdır.
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.
**Əlaqələndirici şəxs:**
Anar İsmayilov
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin böyük mühəndisi
Tel: +994 12 521-07-67
Tel: +994 50 292 80 85
Tel: +994 55 234 84 85
Elektron ünvan: anar.k.ismayilov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 19.03.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.
***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**Taxta və diktə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25038-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 07.03.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 14.03.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər üzrə 118 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin sifariş əsasında 20 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.
**Bank təminatı:**
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.
**Əlaqələndirici şəxs:**
Fətullayev Səlim
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin mühəndisi
Telefon nömrəsi: +994 12 521-00-00 25-141
Korporativ mobil: +994 50 842 51 41
Elektron ünvan: selim.fatullayev@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 14.03.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!
**iki sahil** *Son səhifə* **16**
www.ikisahil.az / www.ikisahil.tv
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 32 (7287) / Şənbə, 16 fevral 2019-cu il

# Dünyanın ən qəribə və maraqlı vəsiyyətnamələri

***Bəzi varlı və məşhur insanlar çox qəribə və təəccüblü vəsiyyətnamələri ilə öz adlarını tarixə hakk ediblər. Onların vəsiyyətnamələri ictimaiyyət üçün gerçək bir sensasiya halına çevrilib. Bu gün biz tarixə öz qeyri - adi vəsiyyətləri ilə adlarını yazmış məşhurlar haqqında danışacağıq. Onların hansı məqsədləri güdməklərinə baxmayaraq, illər ötsə belə adları hələ də yaddaşlarda qalacaq.***



**Samuel Bratt**



Siqaret aludəçisi olan varlı cənab Bratt ölüm yatağında olduğu zaman həyat yoldaşından qisas almağa çalışıb. Həyat yoldaşı onun bu pis vərdişi ilə mübarizə apardığı üçün, Bratt öz vəsiyyətnaməsində qeyri - adi şərt irəli sürüb. Belə ki, əgər həyat yoldaşı hər gün beş ədəd siqar çəkərsə, yalnız o zaman Samuel Brattın sərvəti ona həvalə olunacaqdı. Xatırladaq ki, həmin vaxtda Brattın sərvəti 330 min funt dəyərində idi.

**Leona Hemsli**



Ekssentrik milyoner qadının son vəsiyyəti belə idi ki, onun ölümündən sonra doğma nəvələrinin hər biri 5 milyon dollar dəyərində vəsaitə sahib olsunlar, sevimli itinə isə bu məbləğin iki qatı verilsin. Hemslinin istəyinə əsasən onun iti öldüyü zaman sahibəsinin yanında, xüsusi mavzoleydə basdırılması üçün 1,5 milyon dollar vəsait xərclənsin.

**Qenri Ford**



Məşhur maqnat ölümündən sonra xeyriyyəçilik məqsədi ilə yarım milyard dollar sərvət qoyur. Onun istəyinə görə, pulların hamısı 4 min təhsil və xeyriyyəçilik məqsədinə sərf olunmalı idi. Bugünkü gün bu vəsiyyət tarixdə ən bahalı bağışlama hesab olunur.

**Cin Rodenberri**



Məşhur “Ulduz yolu” françayzinqi (imtiyazçı) özünə “fantastik” dəfn mərasimi təşkil edib. Hələ yaşadığı dövrdə onun vəsiyyəti, öldüyü zaman cəsədinin kremasiya (yandırmaq) olunması və cəsədin küllərinin kosmosda səpilməsi idi. Rodenberrin istəyi vəsiyyət etdiyi kimi həyata keçirildi.

**Ancel Pantoyn**



Porto Rikolu qətlə yetirilərək öldürülür. Hələ də bu günə kimi onun qatili müəyyən olunmayıb. Doğma qardaşı dünyasını dəyişmiş Ancel Pantoynonun istəyini səsləndirərək bildirmişdi ki, onun arzusu anasının evində yaşamaq və ayaqları üzərində möhkəm durmağı bacarmaq idi. Qohumları onun bu arzusunu qeyri - adi şəkildə yerinə yetirməyi qərara alırlar və Pantoynonun cəsədini xüsusi dərmanın hesabına anasının evində şaquli vəziyyətdə evin bir küncünə yerləşdirilir.

**Qenrix Qeyn**

Məşhur şair Qeyni həyatı boyu səfeh, intriqaçı və qəddar qadın Yevgeniey Mirat ilə ailə həyatı qurduğuna görə peşman olub. Qenrix yazdığı vəsiyyətdə ölümündən sonra sərvətinin həyat yoldaşına verilməsi şərtini belə bildirib: ölümündən sonra həyat yoldaşı qanuni şəkildə başqa birisi ilə ailə qurmuş olsa bütün miras ona veriləcəkdi. Səbəbi isə çox maraqlıdır. Qenrix Qeyn hesab edirdi ki, bu üsulla bir nəfər belə olsa onu başa düşəcək və onun keçirdiyi həyata kədərlənəcək

Gördüyünüz kimi, insanlar bu imkanı müxtəlif cür dəyərləndirirlər: kimisi qisas almaq üçün, kimisi isə xeyriyyəçilik naminə. İnsanın son arzusu necə olacaq, bu hər kəsin öz seçimidir. Lakin istənilən halda bu qərarlar insanın necə həyat sürdüyünü və gələcək nəslin onun haqqında hansı xatirələri yaddaşlarda saxlayacaqlarını müəyyən edəcək.

**Könül Əliyeva,**
***“İki sahil”***



# Bir insan sevdiyi zaman...

***Oksitosin, dopamin, seratonin, endorfin, adrenalin...***

Sevgi eliksiri kimi tanınan bu hormonların beyindən ötürülməsindən sonra gerçəkləşən sevgi, öz təsirini ürəkdə göstərir.

Sevginin uzun müddətli infarkt riskini azaltdığı və ürəyin ömrünü uzatdığı elmi şəkildə sübut edilib.

***Qan təzyiqinə yaxşı təsir edir***

Sevgi qan təzyiqini normallaşdırır. Elmi araşdırmalar göstərir ki, qucaqlaşdıqdan sonra növbəti 10 dəqiqəlik sevgi sözləri qan təzyiqini azaldır. Bu təsirin əsası bədəndə artan istirahət hormonu olan oksitosindir. Qan təzyiqini tənzimləyən digər amillər bədəndə stressin azalması, yuxu keyfiyyətinin artması və qidalanma keyfiyyətinin artmasıdır.

***Xolesterolu azaldır***

Tədqiqatlar göstərir ki, xoşbəxt münasibət yaşayan cütlüklərin orqanizmi stress hormonlarının azalması ilə paralel olaraq daha az xolesterol səviyyəsinə malik olurlar. Xoşbəxt cütlüklərin daha yaxşı yemək yemək vərdişlərinin olması halında xolesterol tarazlığına müsbət təsir göstərir. Daimi idman edən cütlüklərin sağlamlıq səviyyəsi tək idman edənlərə nisbətən daha yüksəkdir, zərərli yağ səviyyələri də əhəmiyyətli dərəcədə azalır.

***Ömrü uzadır***

Xoşbəxt münasibət yaşayan insanların tək yaşayanlardan daha uzun ömrü olduğunu bilirdinizmi?

Tək yaşayan insanlarda depressiya və qeyri-sağlam qidalanma, siqaret və spirtli içki istehlakı daha çox müşahidə olunur. Elmi araşdırmalar göstərir ki, tək yaşayan qadınların ömrü başqaları ilə müqayisədə orta hesabla 2 il, kişilərin isə orta hesabla 6-7 il az olur.

***Xoşbəxtlik bəxş edir***

Bir insan sevdiyi zaman beyin tərəfindən istehsal olunan dopamin, endorfin və seratonin kimi hormonlar antidepressant təsiri yaradır, ürək damarları isə depressiyanın zərərli təsirlərindən qorunur. Sevgi dediyimiz zaman sadəcə iki qarşı cins arasındakı emosional yaxınlaşma başa düşülməməlidir. İnsana hüzur verən ailə sevgisi, heyvan və təbiət sevgisi də ürəyin sağlamlığına müsbət təsir göstərir. Beləliklə, məhəbbət insan üçün bir yük olmamalıdır əksinə insanın həyatına müsbət təsir göstərməlidir. Bu səbəblə də sevginin ürək və beyin arasındakı balansını qorumaq lazımdır.

***İmmuniteti gücləndirir***

Sevgi eliksirinin ən əhəmiyyətli elementi olaraq bilinən oksitosin hormonunun miqdarı artır, qan təzyiqi yaxşılaşır, bədənin immun sistemi güclənir və damarlarda iltihab halları azalır.

**Röya Rasimqızı**

**ALLAH RƏHMƏT ELƏSİN!**

“İki sahil” qəzeti redaksiyasının kollektivi qəzetin baş redaktoru Vüqar Rəhimzadəyə, bacısı

**Pakizə Paşayevanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

SOCAR-ın “Azneft” İB-nin “Siyəzənneft” NQÇİ-nin baş geoloqu Bəhram Xantəmir oğlu Əhmədov Mərkəzi Neftçilər Xəstəxanasının həkimi Natiq Həsənova, atası

**Sadiq Həsənovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi: SOCAR

Baş redaktor: **Vüqar RƏHİMZADƏ**
Baş redaktorun I müavini: **İsmayıl HACIYEV**

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet “İKİ SAHİL”in kompyuter mərkəzində yığılır və “AZƏRBAYCAN” nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 16.02.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8179
İndeks: 0151, Sifariş: 525

Qəzetdə “AZƏRTAC”, “OLAYLAR”, “AzadInform”, “TREND”, SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.